

Milli azadlıqdan
şirin nemət yoxdur!

# YENİ AZƏRBAYCAN

28 oktyabr 2025-ci il, çərşənbə axşamı
№ 195 (7022)
Qiyməti 60 qəpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.


İlham Əliyev
@azpresident

Müzəffər Azərbaycan Ordusu Zəngilanın Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Zərnəli, Füzulinin Mandılı, Cəbrayılın Qazanzəmi, Xanağabulaq, Çüllü, Quşçular, Qaraağac,

Translate Tweet

4:32 PM · Oct 28, 2020 · Twitter Web App

İlham Əliyev
@azpresident

Replying to @azpresident

Qubadlının Qiyaslı, Ədilcə, Qılıcan kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

Translate Tweet

4:32 PM · Oct 28, 2020 · Twitter Web App

## Qlobal güc balansında Bakı faktoru: Vaşinqton üçün strateji tərəfdaşlıq zərurəti



Bax səh. 2

## Dünyaya Azərbaycan nümunəsi

Bax səh. 3

## Ramiz Mehdiyevin riyakar xislətini nümayiş etdirən məktub

Prezident Administrasiyasının və Milli Elmlər Akademiyasının sabiq rəhbəri Ramiz Mehdiyevin Azərbaycanda dövlət çevrilişi həyata keçirmək istədiyi və bununla bağlı Rusiyanın müəyyən strukturlarının rəhbərlərinə məktub ünvanladığı barədə mediada məlumat verilib.

Həmin məktubun Azərbaycan xüsusi xidmət orqanlarının əlinə keçdiyi barədə də informasiyalar yayılmışdı. Bəziləri belə məktubun olmadığını, onun mövcudluğuna inanmadıqlarını iddia etsələr də, təqdim etdiyimiz fakt Ramiz Mehdiyevin, həqiqətən də, xarici ölkənin köməyi ilə Azərbaycanda hakimiyyət çevrilişi planı gerçəkləşdirmək xülyasına düşdüyünü göstərir.

“Yeni Azərbaycan” qəzeti APA-ya istinadən Ramiz Mehdiyevin...

Bax səh. 4

## 4-cü dəfə...
### Bərdədə erməni terrorundan 5 il ötür



Bax səh. 4

## Fiziki sağlamlıq və mənəviyyat...

Bax səh. 5

## Tbilisidə etirazlar davam edir...

Bax səh. 5

## Dünya yeni təhdiddən narahatdır...

Bax səh. 6

## Daha bir münaqişəyə son qoyuldu!

ABŞ Prezidenti Donald Tramp növbəti diplomatik uğura imza atıb. Belə ki, Malayziyanın paytaxtı Kuala-Lumpur şəhərində Cənub-Şərqi Asiya Ölkələri Assosiasiyasına (ASEAN) üzv dövlətlərin liderlərinin sammiti çərçivəsində Kamboca və Tailand arasında sülh sazişi imzalanıb. Sazişi Donald Trampın iştirakı ilə hər iki ölkənin baş nazirləri imzalayıblar. Tərəflər arasında sülh sazişinin imzalanması barədə ABŞ Prezidenti sosial media hesabında da məlumat verib. Tramp müharibələri dayandırmağı sevdiyini deyib, amma bildirib ki, bunu hobbi adlandırmazdı. O, belə bir açıqlamanı Kuala-Lumpurda, Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyasının sammiti çərçivəsində Tailand və Kambocanın münasibətləri haqqında birgə bəyannamənin imzaladığı vaxt verib. “Tailand və Kamboca liderlərinə zəng etdiyim günü heç vaxt unutmayacağam, çünki bu, həllinə...

Bax səh. 7

## Kilsə - birləşmiş müxalifət - hakimiyyət qarşıdurması şiddətlənir



Bax səh. 6

## Görüş yerini dəyişmək olmaz...



Bax səh. 7



# Qlobal güc balansında Bakı faktoru: Vaşinqton üçün strateji tərəfdaşlıq zərurəti

## Azərbaycan-ABŞ əlaqələrinin yeni gündəmi 907-ci düzəlişin ləğvini aktuallaşdırır

Son illər Azərbaycan iqtisadi, siyasi və geosiyasi baxımdan mühüm yüksəliş mərhələsini yaşayır. Qlobal sistemin yenidən formalaşdığı, beynəlxalq münasibətlərin çoxqütblü modelə keçdiyi bir zamanda Azərbaycan həm regional, həm də qlobal miqyasda özünü sabitlik, əməkdaşlıq və strateji tərəfdaşlıq mərkəzi kimi təqdim edir. Ölkə enerji istehsalçısı olmaqla yanaşı, həm də qlobal logistik, kommunikasiya və təhlükəsizlik arxitekturasında əsas oyunçuya çevrilib.

Bu inkişaf trayektoriyası Azərbaycanın xarici siyasət kursunun praqmatik, çevik və gələcəyə hesablanmış istiqamətdə qurulduğunu göstərir. Azərbaycan dünyanın aparıcı dövlətləri ilə qarşılıqlı hörmətə, bərabərhüquqlu tərəfdaşlığa əsaslanan münasibətlər sistemini möhkəmləndirir. Avropa ilə enerji dialoqu, Asiya ilə nəqliyyat əlaqələri, Türk dünyası ilə inteqrasiya, Yaxın Şərq və Afrika ilə əməkdaşlıq xəttinin genişlənməsi Azərbaycanın çoxşaxəli diplomatik xəttinin nümunəsidir.

Bu gün Bakı artıq təkcə regional deyil, qlobal qərarların verilməsində də təbii iştirakçı mövqeyinə sahibdir. Qlobal Cənubun yüksəliş dinamikasında, kolonial sistemin qalıqlarının aradan qaldırılmasında, Şərq-Qərb və Şimal-Cənub marşrutlarının kəsişməsində yerləşən Azərbaycan faktoru dünya güclərinin diqqət mərkəzindədir. Bu kontekstdə Bakı-Vaşinqton əlaqələri də yeni bir mərhələyə qədəm qoyur.

Bu faktdır ki, son dövrlərdə Vaşinqtonun Azərbaycan siyasətinə baxışı dəyişir: Cənubi Qafqazda sabitliyin qorunması, enerji təhlükəsizliyinin təmin olunması və Yaxın Şərqdə yeni təhlükəsizlik mexanizminin qurulması üçün apardığı uğurlu iş baxımından Bakı artıq ABŞ üçün mühüm strateji tərəfdaşa çevrilməkdədir.




### Azərbaycan yeni statusda: reginal mərkəzdən qlobal gücə çevrilməyə doğru...

Təsadüfi deyil ki, bu fakt artıq bütün dünya tərəfindən də etiraf olunur - istər ABŞ-ın, istərsə də digər Qərb regionunun aparıcı analitik mərkəzləri, beyin institutları Azərbaycanın yeni dövrdə mühüm problemlərin həllindəki rolunu yüksək dəyərləndirirlər. Bakının sıçrayışlı inkişafı hətta nümunə göstərilir. Məsələn, “Eurasianet” analitik nəşrinin məqaləsində bildirilir ki, Azərbaycan son onilliklərdə təkcə Cənubi Qafqazda regional lider deyil, həm də Yaxın Şərq və Avropadakı maraqların kəsişməsində əsas oyunçu kimi ortaya çıxıb. Onun energetika sahəsindəki əhəmiyyəti, siyasi sabitliyi və əsas oyunçularla strateji tərəfdaşlığı Bakını regionda və ondan kənarda əsas proseslərə təsir göstərə bilən mühüm mərkəzə çevirir. “Bakı öz təsirini yeni bir oyunçu kimi göstərmək imkanı qazanıb. Onun coğrafi mövqeyi bu Cənubi Qafqaz ölkəsinə regional enerji və təhlükəsizlik üzərində müstəsna təsir imkanı verir. Bu amillər, ABŞ-ın Yaxın Şərqdə yeni güc balansını formalaşdırmaq səylərində Azərbaycanın artan əhəmiyyəti fonunda Vaşinqtonun Bakı ilə əlaqələrini məhdudlaşdıran 907-ci düzəlişin ləğvi üçün əsas yaradır”, - məqalənin müəllifləri qeyd edirlər.

Həqiqətən də Azərbaycanın artan təsiri, qlobal mühitdə uğurlu çıxışı yalnız iqtisadi resurslar və ya bu kimi amillərə söykənmir. Bu təsirin kökündə ilkin olaraq Bakının coğrafi strateji mövqeyi, sabit daxili siyasi modeli və müstəqil diplomatik xətti dayanır. Qlobal enerji xəritəsində Xəzərin qərb sahilində yerləşən Azərbaycan həm Qafqazın, həm də Avrasiyanın enerji arteriyalarının kəsişmə xəttinə çevrilib. Bakı-Tbilisi-Ceyhan, TANAP, TAP, Bakı-Tbilisi-Qars kimi strateji layihələr Azərbaycanın regional təsirini reallığa çevirib.

Eyni zamanda, Azərbaycan 2020-ci ildə əldə etdiyi tarixi Qələbə ilə regionun yeni təhlükəsizlik memarlığını formalaşdırıb. Bu qələbə sayəsində Azərbaycan yalnız öz ərazi bütövlüyünü bərpa etmədi, həm də Cənubi Qafqazda postmünaqişə dövrü reallıqlarını müəyyən edən dövlət kimi mövqeyini gücləndirdi.

ABŞ üçün bu amil xüsusi əhəmiyyət daşıyır. Çünki regionda sülhün və nəqliyyat əlaqələrinin bərpası Vaşinqtonun da iqtisadi maraqları ilə səsləşir. Azərbaycanın həm Türkiyə, həm Gürcüstan, həm də Mərkəzi Asiya ölkələri ilə sıx tərəfdaşlığı ABŞ üçün Rusiyadan kənar sabit enerji və nəqliyyat dəhlizləri yaratmaq imkanı verir. Bakı artıq sadəcə enerji təchizatçısı deyil, sabitlik ixrac edən bir dövlətdir. ABŞ və Avropa üçün təhlükəsizlik və etibarlılıq baxımından Azərbaycan postsovet məkanında ən güvənilən tərəfdaşlardan biri kimi qəbul olunur. Bu səbəbdən Vaşinqtonun 907-ci düzəliş kimi köhnəlmiş siyasi məhdudiyyətlərə yenidən baxması qaçılmazdır. Çünki yeni əməkdaşlıq mərhələsi genişdiapazonluğu ilə seçiləcək - beləliklə, iki strateji tərəfdaş arasında belə bir ədalətsiz uçurumun varlığı qəbul ediləsi ola bilməz.




### Şarm-əş-Şeyx sammitində iştirak: Bakı yeni diplomatik konfiqurasiyanın tərəfdaşıdır

Məqalədə Azərbaycanın qlobal geosiyasi səhnədə artan təsiri də vurğulanır. Bildirilir ki, Azərbaycan Prezidenti İlham Əliyevin Misirin Şarm-əş-Şeyx şəhərində keçirilən sülh sammitində iştirakı bir daha Bakının Vaşinqtonun Avrasiyanı və Yaxın Şərqdə inkişaf edən təhlükəsizlik arxitekturasını birləşdirən tərəfdaşı kimi artan nüfuzunu göstərir.

Vurğulandığı kimi, Azərbaycan Prezidenti İlham Əliyevin Misirin Şarm-əş-Şeyx şəhərində keçirilən sülh sammitində iştirakı Azərbaycanın qlobal diplomatiyada fəal oyunçu kimi rolunu bir daha təsdiqlədi. Bu sammitdə Yaxın Şərq böhranı, Qəzza zolağında gərginlik və beynəlxalq humanitar vəziyyət müzakirə olunsa da, əsas diqqət yeni təhlükəsizlik arxitekturasının formalaşdırılmasına yönəlmişdi. Bakı isə bu gün Yaxın və Orta Şərqdə yaradılması nəzərdə tutulan sülh prosesinin uğurlu memarlarından biridir. Biz hər zaman bildirmişik ki, istənilən qarşıdurmanın uzunmüddətli həlli yalnız dialoq, qarşılıqlı hörmət və ədalət üzərində qurula bilər. Bu səbəbdən Bakının Misir sammitinə dəvəti təsadüfi deyil - bu, beynəlxalq ictimaiyyətin Azərbaycana olan etimadının göstəricisidir.

Azərbaycanın Yaxın Şərq Sülh Sammitində təmsil olunması bir daha göstərir ki, Bakı artıq qlobal diplomatiyanın ayrılmaz iştirakçısına çevrilib. Bu iştirak təkcə siyasi deyil, həm də mənəvi mahiyyət daşıyır. Azərbaycan Yaxın Şərqdə baş verən hadisələrə hər zaman ədalət və beynəlxalq hüquq prizmasından yanaşır. Azərbaycan həm Türkiyə-İsrail, həm də Suriya - İsrail ilə münasibətlərdə barışdırıcı və ədalət prizmasında siyasət aparan ölkələrdəndir. Bakı bu münasibətlərin tənzimlənməsində dialoq körpüsü rolunu oynayır. Azərbaycanın bu yöndə təmin etdiyi diplomatik xətt göstərir ki, o, regional sabitliyin təminatçısı olmaqla yanaşı, həm də böyük dövlətlər arasında körpü funksiyasını uğurla yerinə yetirir.

Sülh sammitində Azərbaycanın iştirakı həm də simvolik məna daşıyır: bu, sülhü qələbədən sonra da qorumağın mümkünlüyünü göstərən təcrübənin paylaşılmasıdır. Azərbaycan bu mənada “sülhün bərpası” deyil, “sülhün möhkəmləndirilməsi” modelini təklif edir.

Bakı həm də bu prosesdə körpü rolunu oynayır: bir tərəfdən Avrasiyanın enerji və logistika arteriyalarını nəzarətdə saxlayır, digər tərəfdən isə müsəlman dünyası ilə Qərb arasında balanslaşdırıcı diplomatik missiya yerinə yetirir. ABŞ üçün bu, mühüm fürsətdir. Çünki Azərbaycan müstəqil siyasi xəttə malik dövlətdir - bu, onu müstəqil regional güc kimi də fərqləndirir.

Prezident İlham Əliyevin sammitdəki çıxışı bütün dünyada, o cümlədən Vaşinqtonda da diqqətlə izlənildi. ABŞ analitik dairələrinin, KİV-in və təhlil mərkəzlərinin qənaətlərinə diqqət yetirsək, Azərbaycanın Yaxın Şərq diplomatiyasına daxil olması “yeni regional təhlükəsizlik modeli”nin tərkib hissəsi kimi qiymətləndirilir. Bu, həm də Azərbaycanın artıq bütövlükdə Avrasiyanın geosiyasi mərkəzi statusunu möhkəmləndirir.



### “Sülh üçbucağı”: Bakı regional sabitliyin əsas dayağı kimi...

Azərbaycanın Yaxın Şərqdə silahların susması, sülhün əldə olunması üçün apardığı siyasət həqiqətən də öz bəhrəsini verir - bu, qlobal mühit tərəfindən də dəyərləndirilir. Sözügedən məqalədə bu məqama da toxunulur - bildirilir ki, Azərbaycanın həm Türkiyə, həm də İsrail ilə sıx əlaqələri onu regional güc balansının formalaşmasında əsas oyunçuya çevirib. Suriyada maraqları tez-tez fərqli olan bu iki əsas tərəfdaş arasında vasitəçilik etmək üçün Bakı xüsusən unikal mövqedədir. May-iyul aylarında Azərbaycan Türkiyə və İsrail arasında Suriya məsələsi ilə bağlı danışıqların üç raunduna yardım edib. Eyni zamanda, Azərbaycan Suriya keçid rəhbərliyi ilə əlaqələrini dərinləşdirib və bu, Prezident Əhməd əş-Şaraanın 12-13 iyulda Bakıya səfəri ilə nəticələnib. Səfər zamanı tərəflər Azərbaycan qazının Türkiyə vasitəsilə Suriyaya ixracı ilə bağlı tarixi razılaşma imzalayıblar.

Vurğulandığı kimi, Azərbaycanın həm Türkiyə, həm də İsrail ilə sıx əlaqələri regionda unikal diplomatik üçbucaq formalaşdırıb. Bu üçbucaq həm enerji, həm müdafiə, həm də təhlükəsizlik sahələrini əhatə edir.

Bəzi məsələlərdə fərqli baxışlara sahib olan Türkiyə və İsrail arasında vasitəçi kimi Bakının çıxış etməsi regionda yeni siyasi balans yaradır. Azərbaycanın bu iki dövlət arasında Suriya məsələsi ilə bağlı üç raund danışıqlara ev sahibliyi etməsi də Bakının etibarlı tərəfdaş statusunu təsdiqləyir. İyulun 12-13-də Suriya keçid rəhbərliyinin başçısı Əhməd əş-Şaraanın Bakıya səfəri bu diplomatik xəttin məntiqi nəticəsi idi. Bakı bu görüş vasitəsilə həm Suriyanın bərpa prosesində iştirak niyyətini nümayiş etdirdi, həm də bölgədəki sülh missiyasına diplomatik dəstəyini verdi.

Paralel olaraq Azərbaycan, Ermənistan və ABŞ arasında imzalanmış Zəngəzur dəhlizi (TRIPP) layihəsi Bakı-Vaşinqton strateji əməkdaşlığının iqtisadi və siyasi ölçülərini uzlaşdırır. Bu layihə həm ABŞ-nin, həm də Avropanın regionda enerji və nəqliyyat təhlükəsizliyini artırır. Tramp administrasiyasının aktiv iştirakı ilə müzakirə olunan bu təşəbbüs yüksək qiymətləndirilir - Vaşinqton Bakının rolunu əsas strateji körpü kimi dəyərləndirir. Bu proses Azərbaycanın regional logistika və enerji sistemindəki çəkisini daha da gücləndirir.

### Strateji səfər: Vaşinqton Azərbaycan ilə əlaqələri gücləndirməkdə maraqlıdır

Məqalədə deyilir ki, ABŞ-ın Silahlı Qüvvələrinin Mərkəzi Komandanlığının (CENTCOM) rəhbəri, admiral Bred Kuper oktyabrın 18-də Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənovla görüşüb. “Bu adi görüş deyildi, çünki Azərbaycan CENTCOM-un deyil, ABŞ-ın Avropa Komandanlığının marağına daxildir. Bu görüş Vaşinqtonun regional koordinasiyasının genişlənməsinə işarə etdi”, - məqalədə bildirilir.

Qeyd edək ki, CENTCOM rəhbərinin Bakıya səfəri Vaşinqtonun Azərbaycanı artıq Yaxın Şərq və Mərkəzi Asiya təhlükəsizlik sisteminin bir hissəsi kimi nəzərdən keçirdiyinin göstəricisi kimi də önə çıxır. Bu görüş həm də ABŞ-ın yeni “regional koordinasiya xəritəsi”nin formalaşmasından xəbər verir. ABŞ üçün Azərbaycan həm regional sabitlik sabitlik faktoru, həm də Qafqaz - Orta Asiya enerji bağlantısında əsas dayağı rolunu oynayır. CENTCOM rəhbərinin səfəri həm hərbi, həm də diplomatik baxımdan yeni mərhələnin başlanğıcıdır.

Bu səfər çərçivəsində terrorizmə qarşı mübarizə, enerji infrastrukturlarının mühafizəsi və kibertəhlükəsizlik üzrə əməkdaşlıq məsələləri də müzakirə olunub. Bu, Azərbaycanın ABŞ təhlükəsizlik sisteminə inteqrasiyasının dərinləşməsi deməkdir.

### Yeni dialoq mərhələsi: Bakının sülhpərvər imici beynəlxalq brendə çevrilib

Məqalədə o da vurğulanır ki, ABŞ-ın əsas prioriteti Prezident Trampın 20 maddəlik planının bir hissəsi olaraq Qəzza zolağında vəziyyəti sabitləşdirməkdir. Ərəb və müsəlman ölkələri arasında Azərbaycan İsraillə ən yaxın strateji əlaqələrə malik ölkə kimi seçilir. “Bu unikal mövqe həlledici əhəmiyyətli olacaq. CENTCOM-un komandanının Azərbaycana son səfəri Vaşinqtonun Bakının (Yaxın Şərqdə) bu inkişaf etməkdə olan təhlükəsizlik sistemi üçün artan əhəmiyyətini qəbul etməsini əks etdirir. Vaşinqton təhlükəsizlik və iqtisadiyyat sahəsində Azərbaycanla hərtərəfli tərəfdaşlığın qurulması üçün qətiyyətli hərəkət etməlidir”, - analitiklər qeyd ediblər.

Göründüyü kimi, Bakının sülhpərvər imici artıq beynəlxalq brendə çevrilib. Qlobal təhlükəsizlik, enerji əməkdaşlığı və humanitar diplomatiya sahəsində Azərbaycanın oynadığı rol Yaxın Şərq üçün də nümunə kimi təqdim olunur - məhz bu nöqteyi-nəzərdən də, yeni reallıqda 907-ci düzəlişin saxlanılması Vaşinqtonun öz maraqlarına zidd görünür. Həm enerji təhlükəsizliyi, həm sülh təşəbbüsləri, həm də yeni qlobal düzənin formalaşması baxımından ABŞ və Azərbaycan əməkdaşlığı təhlükəsizliyin, iqtisadiyyatın və diplomatiyanın kəsişdiyi nöqtədə yeni mərhələyə qədəm qoyub. Bugünkü beynəlxalq mühitdə Azərbaycan artıq fəal tərəfdaş kimi qəbul edilir - 907-ci düzəliş kimi köhnəlmiş siyasi məhdudiyyətlərin ləğvi həm regionda sabitliyə, həm də ABŞ-ın qlobal strateji maraqlarına xidmət edəcək. Azərbaycanın artan əhəmiyyəti fonunda Bakı-Vaşinqton münasibətləri yeni siyasi dialoq mərhələsinə daxil olub - bu mərhələdə qarşılıqlı maraqlar üzərində qurulmuş əməkdaşlıq gələcəkdə Qafqazdan Yaxın Şərqə, oradan da Qlobal Cənuba qədər geniş bir geosiyasi məkanın əsas hərəkətverici qüvvəsinə çevrilə bilər.

***Pərviz SADAYOĞLU***

# Dünyaya Azərbaycan nümunəsi

## Əsrlər boyu ölkəmizdə bütün dinlərin, bütün etnik qrupların nümayəndələri bir ailə kimi sülh, mehribanlıq, dostluq, qarşılıqlı anlaşma şəraitində yaşamışlar və ənənələr bu gün də qorunur

Azərbaycanda dünya gündəliyinin aktual məsələlərinin müzakirələrinin aparıldığı mötəbər konfransların, görüşlərin keçirilməsi artıq gözəl bir ənənə halını alıb. Ayrı-ayrı beynəlxalq təşkilatların özlərinin tədbirlərinin keçirilməsi üçün respublikamızı ev sahibi ölkəsi kimi müəyyənləşdirmələri isə heç də təsadüfi deyil. Respublikamız hər cəhətdən müsbət reallıqlara, möhkəm daxili sabitliyə malikdir, müxtəlif konfessiyalar arasında hər hansı bir ixtilaf yaşanmır, eyni zamanda, ölkəmizin xarici siyasəti xoş məsama, bərabərlik və beynəlxalq hüquqa əsaslanır. Bütün bunlar da beynəlxalq miqyasda Azərbaycana və onun Liderinə inamı getdikcə artırır. Öz növbəsində respublikamız ev sahibliyi missiyasını üzərinə götürdüyü beynəlxalq tədbirlərdə yüksək məsuliyyət ortaya qoymaqla nəticəyönümlü müzakirələrin aparılmasına hər cür şərait yaradır.

Bugünlərdə Yeni Azərbaycan Partiyasının (YAP) ev sahibliyi ilə baş tutan Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı (İCAPP) Daimi Komitəsinin (DK) 44-cü və İCAPP Mədəniyyət Şurasının 4-cü iclasının uğurla keçməsi buna daha bir nümunədir. Tədbir iştirakçılarına müraciət ünvanlayan Prezident İlham Əliyev ölkəmizin malik olduğu müsbət reallıqlara, beynəlxalq əməkdaşlığa, mədəniyyətlərarası dialoqa, dünyada qarşılıqlı etimad mühitinin möhkəmlənməsinə davamlı töhfələr verdiyinə diqqət çəkib.

## Tarixi ənənələrdən qaynaqlanan dövlət siyasəti



Azərbaycan tarixdən gələn milli-mənəvi dəyərlərin qorunub gələcək nəsillərə ötürülməsinə böyük önəm verən dövlətdir. Dünya birliyinin suveren aktoru olan respublikamızın ideoloji əsasları, daxili və xarici siyasətin prioritetləri məhz milli dəyərlər və milli maraqlar üzərində formalaşıb. Eyni zamanda, ölkəmizin mədəniyyətlərarası dialoq platformalarına ev sahibliyi etməyə hər cəhətdən haqqı var - Azərbaycan çoxmədəniyyətli və çoxkonfessiyalı cəmiyyətə malik olmasını özünün böyük sərvəti sayır. Hazırda ölkə əhalisinin 96 faizini müsəlmanlar, 4 faizini xristian, yəhudi və digər dinlərin nümayəndələri təşkil edirlər. Respublikamızda bütün dinlərə aid icmalar sərbəst şəkildə fəaliyyət göstərirlər. Azərbaycan ictimai-siyasi quruluşundan asılı olmayaraq, bütün dövrlərdə bu istiqamətdə nümunəvi ölkə kimi özünü göstərib. Əsrlər boyu ölkəmizdə bütün dinlərin, bütün etnik qrupların nümayəndələri bir ailə kimi sülh, mehribanlıq, dostluq, qarşılıqlı anlaşma şəraitində yaşamışlar.

Azərbaycan qədim tarixə malik ölkədir və bunu bir sıra amillər təsdiqləyir. O cümlədən zəngin tariximizin izləri respublikamızın ərazisindəki çoxsaylı abidələrdə də öz əksini tapıb. Diqqəti çəkən məqam həm də ondan ibarətdir ki, ölkə ərazisindəki bugünümüzədək gəlib çatan dini abidələr yalnız bir mədəniyyətə, deyək ki, hazırda əhalinin böyük əksəriyyətinin etiqad bəslədiyi İslam sivilizasiyasına aid deyil. Əksinə, paytaxt Bakıda və respublikanın bölgələrində mövcud olan dini abidələr müxtəlif sivilizasiyaların izlərini özlərində qoruyub saxlayır. Aşağıdakı faktlar deyilənləri bir daha təsdiqləyir. Azərbaycan xalqı qürur duyur ki, İslam aləminin ən qədim məscidlərindən biri respublikamızda yerləşir. Söhbət Şamaxı Cümə məscidindən gedir. 743-cü ildə inşa olunan bu dini abidə Dərbənd məscidindən sonra Qafqazın ən qədim məscididir və hazırda tarixi abidə kimi qorunur. Xatırlatmaq yerinə düşər ki, bir neçə il bundan əvvəl burada əsaslı təmir işləri həyata keçirilib.

Bəhs olunan Şamaxı Cümə məscidi İslam sivilizasiyasını əks etdirir. Eyni zamanda, ölkəmizin ərazisində qədim dövlət olan Qafqaz Albaniyasının kilsəsi Azərbaycanın digər tarixi şəhəri - Şəkinin yaxınlığında yerləşir. Həmçinin bu kilsə də Qafqazın ən qədim tarixi abidələrindən biridir.

Digər bir nümunəyə diqqət yetirək. Bakının Suraxanı rayonunda Atəşgah yerləşir. Bu abidə də dövlət vəsaiti ilə yüksək səviyyədə təmir edilib. Bakıda atəşpərəstlik məbədinin mövcud olması ona dəlalət edir ki, zərdüştlük dininin Azərbaycanda qədim kökləri var. Sonrakı dövrlərdə respublikamızda rus pravoslav kilsələri, sinaqoqlar, katolik kilsəsi inşa edilib. Respublika ərazisindəki tarixi dini abidələr ilk növbədə, onu göstərir ki, Azərbaycan qədim diyardır. Digər tərəfdən ona dəlalət edir ki, müxtəlif dövrlərdə müxtəlif dinlərin nümayəndələri Azərbaycanda yaşamış, yaratmış və gözəl tarixi miras qoymuşlar.

Azərbaycanın üstünlüyü ondan ibarətdir ki, tarixi ənənələr bu gün də yaşayır. Çoxmədəniyyətlilik respublikamızda heç bir halda ayırıcı xətlər yaratmır. Əksinə, biz bununla qürur duyuruq. 44 günlük Vətən müharibəsi bir daha göstərdi ki, Azərbaycanın gücü həm də burada yaşayan xalqların sarsılmaz həmrəyliyindədir. "Azərbaycan tarix boyu müxtəlif sivilizasiyaların qovuşduğu, mədəniyyətlərin, dinlərin və ənənələrin qarşılıqlı təsir mühitində formalaşdığı unikal bir məkan olmuşdur. Çoxmillətli və çoxkonfessiyalı ölkəmizin ictimai-siyasi inkişafında bütün dinlərin və etnik qrupların nümayəndələrinin qarşılıqlı hörmət, etimad və sülh şəraitində birgəyaşayışı mühüm rol oynamışdır. Multikulturalizm və tolerantlıq ənənələrinin qorunub saxlanması Azərbaycan cəmiyyətinin sosial-mədəni əsaslarının ayrılmaz tərkib hissəsidir və dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir", - deyə Prezident İlham Əliyev yuxarıda bəhs etdiyimiz tədbirin iştirakçılarına ünvanladığı müraciətində vurğulayıb.






## Beynəlxalq səviyyədə Azərbaycan brendi kimi tanınan "Bakı prosesi"

Hazırda sivilizasiyanın yüksək mərhələsinə çatan bəşəriyyət eyni zamanda bir sıra ciddi çətinliklərlə üzləşib. Dövlətimizin başçısının bildirdiyi kimi, müasir dövrdə bəşəriyyət dərin transformasiya mərhələsini yaşayır, mövcud qlobal nizam silahlı münaqişələr, ekoloji böhranlar və sosial-iqtisadi bərabərsizliklər kimi çoxşaxəli çağırışlar qarşısında sınağa çəkilir. Həqiqətən də, dünyada müşahidə edilən mənzərə heç də ürəkaçan deyil. Bu gün ayrı-ayrı regionlarda sülh və təhlükəsizliyə yaranan təhdidlər heç vaxt olmadığı qədər artıb, dünyamız daha çox parçalanmış görünür.

Artıq onilliklərdir ki, Yaxın Şərq müharibə girdabından çıxa bilmir. Qanlı savaşlar, imperialist güc mərkəzlərindən ixrac olunan xaos, "rəngli inqilablar" ayrı-ayrı xalqların dövlətçilik ənənələrini pozub, bir vaxt çiçəklənən şəhər və kəndlər dağıdılıb, ölkələrin sərvətləri talanır. Son illərdə dünya Qəzzada insanlıq faciəsinə şahidlik edib - burada qanlı müharibə 70 minədək insanın həyatına son qoyub. Sağ qalanlar ən zəruri ehtiyaclardan belə məhrumdurlar. Digər bir münaqişə ocağının - Rusiya-Ukrayna müharibəsinin də sonu görünmür. Yenə də on minlərlə ölü və yaralı sayı. Milyonlarla insan doğma ev-eşiyini tərk etmək, ağır qaçqınlıq taleyi yaşamaq məcburiyyətində qalıb. Müharibənin alovlanmasına isə güc mərkəzlərinin qarşıdurması, geosiyasi maraqları səbəb olub.

Dünyanın olduqca narahat mənzərəsinin digər bir mühüm əlaməti mədəniyyətlərarası dialoqla bağlıdır. Bir sıra hallarda sivilizasiyalararası qarşıdurmaların müşahidə edilməsi son dərəcə kədərli təəssüratlar oyadır. Bəşəriyyət sanki geridönüş edir və ayrı-ayrı məkanlarda dinlər, etiqadlar, irqlər arasında qarşıdurmalar açıq müstəviyə keçir. Ən qorxulu cəhət ondan ibarətdir ki, mədəniyyətlərarası dözümsüzlük əksər hallarda müəyyən qüvvələr, hətta dövlətlər səviyyəsində təşviq edilərək qızışdırılır. Bütün səmavi dinlər bəşəriyyəti bərabərliyə və humanizmə çağırır. Təəssüf doğuran haldır ki, bugünkü Qərb dünyasında hətta dini dəyərlər belə manipulyasiya predmetinə çevrilib. Tam qətiyyətlə deyə bilərik ki, hazırda öz dəyərlərindən və ənənələrindən uzaqlaşan Qərbdə bir sıra hallarda dini təəssübkeşliyə çağırışlar edilir, islamafobiya həyat normasına çevrilir. Son illərdə Yaxın Şərqdə alovlanan münaqişələrin və müharibələrin ssenariləri bir qayda olaraq Qərb dairələrində hazırlanır. Sadə, günahsız insanlar aclıqdan, səfalətdən, dağıntılardan xilas olmaq naminə Avropaya üz tuturlar. Burada isə onların üzünə qapılar bağlanır. Son bir ildə dünyada baş vermiş bütün anti-İslam təzahürlərinin 80 faizi Qərb ölkələrinin payına düşür. İslamofobiyanın ən yüksək səviyyəyə çatdığı və rəsmi ideologiya kimi tətbiq olunduğu bəzi Avropa ölkələrində müqəddəs kitabımız "Qurani-Kərim"in yandırılması, Məhəmməd Peyğəmbərin (s.ə.s) karikaturalarının nəşr edilməsi və sair təhqiramiz hərəkətlər söz azadlığı kimi qələmə verilir ki, bu da qəbuledilməzdir.

Belə bir şəraitdə Azərbaycan dünyaya birgəyaşayışla, dözümlülüklə bağlı çağırışlar edir, təşəbbüslər irəli sürür. Ölkəmizin nümunəsinə diqqət çəkən Prezident İlham Əliyev "Azərbaycan eyni zamanda beynəlxalq müstəvidə müxtəlif mədəniyyətlər arasında ahəngdar münasibətləri təşviq edir, sivilizasiyalararası dialoq zəminində davamlı olaraq bir sıra təşəbbüslər irəli sürür. Azərbaycanın ənənəvi olaraq ev sahibliyi etdiyi Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu mədəniyyət vasitəsilə sülhün təşviqinə yönələn beynəlxalq təşəbbüsləri dəstəkləyən mühüm platformaya çevrilmişdir", - deyə vurğulayıb.

Beynəlxalq səviyyədə artıq Azərbaycan brendi kimi tanınan "Bakı prosesi" respublikamızın mədəniyyətlərarası dialoqun güclənməsinə verdiyi mühüm töhfələrdən biridir. Dünya gündəliyinə daxil olan bu təşəbbüs respublikamızın tarixdən gələn zəngin multikultural ənənələrinə, xoş məramına əsaslanır və qlobal miqyasda mədəniyyətlərarası dialoqa, birgəyaşayışa töhfələr vermək məqsədi daşıyır. Respublikamız "Bakı Prosesi"nin bir hissəsi olaraq mədəniyyətlərarası dialoq forumlarına mütəmadi qaydada ev sahibliyi edir. Xatırladaq ki, Prezident İlham Əliyev tərəfindən 2008-ci ildə irəli sürülmüş mədəniyyətlərarası dialoqa dair "Bakı prosesi"nin tərkib hissəsi sayılan Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu ilk dəfə Bakıda 2011-ci ildə, sonra isə 2013-cü, 2015-ci, 2017-ci, 2019-cu və 2024-cü illərdə təşkil olunub. Ötən müddət ərzində forumun coğrafiyası çox genişlənib, tədbirə qoşulan ölkələrin və qurumların sayı xeyli artıb. Forumlara ümumilikdə 10 mindən çox iştirakçı - hökumət rəsmiləri, beynəlxalq təşkilat və institutlardan rəhbər və nümayəndələr qatılıblar. Eyni zamanda, forumlar çərçivəsində 200-dən artıq müxtəlif formatlı və miqyaslı tədbirlər, plenar və panel müzakirələr, təqdimatlar təşkil olunub.

*Mübariz ABDULLAYEV*

# 4-cü dəfə...

## Bərdədə erməni terrorundan 5 il ötür

**44 günlük Vətən müharibəsinin nəticələri dövlətimizin gücünü, xalqımızın mübarizə əzmini, sarsılmaz həmrəyliyini bütün dünyaya nümayiş etdirdi. Azərbaycan möhtəşəm qələbə qazanmaqla tarixi ədalətin və ərazi bütövlüyünün bərpasına nail oldu. Vətən müharibəsində rəşadətli ordumuzun qarşısında aciz qalan təcavüzkar Ermənistan beynəlxalq hüququn norma və prinsiplərini dəfələrlə pozaraq mülki əhaliyə qarşı hücum edib. Ermənistan həmçinin “Silahlı münaqişələr zamanı mülki şəxslərin müdafiəsinə dair” 1949-cu il Cenevrə Konvensiyasının tələblərini də heçə sayaraq dinc əhaliyə qarşı terror əməllərini davam etdirib. 27 sentyabr - 10 noyabr 2020-ci il tarixləri ərzində Ermənistan hərbi birləşmələri tərəfindən vurulan zərbələr nəticəsində azərbaycanlı dinc əhalinin sıx yaşadığı rayon və şəhərlərin ərazisinə 30 minə yaxın mərmi və 227 raket atılıb. Döyüş meydanında məğlub duruma düşən Ermənistan davamlı şəkildə Gəncəyə, Mingəçevirə, Tərtərə, Bərdəyə, Qəbələyə və digər yaşayış məntəqələrimizə raket hücumları edərək müharibə və insanlıq əleyhinə cinayətlər törədib.**

## Raket hücumu nəticəsində 21 nəfər həlak olub, 70 nəfər yaralanıb

### Qarayusifli kəndindən sonra...



Erməni faşizminin növbəti təzahürü olan bu cinayətkar əməldən ən çox zərər görən regionlardan biri də döyüş zonasından xeyli uzaqda yerləşən Bərdə şəhəri və onun kəndləri oldu. 44 günlük Vətən müharibəsində düşmən Bərdə rayonunun bir sıra kəndlərini və rayon mərkəzini dəfələrlə atəşə tutub. Bərdə şəhərinə ilk raket hücumu zamanı 1 mülki şəxs dünyasını dəyişdi, xeyli sayda yaralanan oldu. Bu qanlı cinayətlər 2020-ci ilin 27 və 28 oktyabrında da törədilib. Belə ki, oktyabrın 27-də rayonun Qarayusifli kəndinə edilən raket hücumu 4 nəfərin həyatına son qoydu. Həlak olanlardan biri azyaşlı qız uşağı idi. Miqyası baxımından Bərdəyə ən qanlı və qəddar raket hücumu isə oktyabrın 28-də gündüz saatlarında olub.

Ermənistanın bu terror hücumlarından artıq 5 il ötür. Humanitar atəşkəsi kobud şəkildə pozan Ermənistan hərbi birləşmələri tərəfindən Bərdə şəhərinin dinc sakinlərinin sıx hərəkətdə olduğu və ticarət obyektlərinin kompakt yerləşdiyi əraziyə qadağan olunmuş silahlarla hücum nəticəsində 5-i qadın olmaqla, 21 nəfər həlak olub, 8-i uşaq, 15-i qadın olmaqla 70 şəxs isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

Bu terror hücumundan sonra ölkəmizdə fəaliyyət göstərən diplomatik korpusun nümayəndələri hadisə yerində olub, erməni vəhşiliyini öz gözləri ilə görüblər. Eləcə də hadisə yerində olan xarici jurnalistlər də Bərdə qətliamını beynəlxalq mediada təkzibolunmaz faktlarla işıqlandırıblar.

### Həmin gün Tərtər və Ağdam rayonları da hədəfə alınıb

Qeyd edək ki, oktyabrın 28-də Ermənistan silahlı qüvvələrinin bölmələri, həmçinin Tərtər rayonunun ərazisini də BM-21 “Qrad” yaylım atəşli reaktiv sistemlərdən və toplardan atəşə tutub. Həmin tarixdə Ermənistan silahlı qüvvələri Ağdam rayonunun yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutmaqda davam edib. Nəticədə kənd və qəsəbələrdə sakinlərə məxsus yaşayış evlərinə, yardımçı binalara, təsərrüfatlara ciddi ziyan dəyib.



Göründüyü kimi, Ermənistan hərbi birləşmələri beynəlxalq hüquq norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə Konvensiyaları və onların Əlavə protokollarını, 2020-ci il sentyabrın 27-də başlayan 44 günlük Vətən müharibəsinin gedişatında əldə olunmuş humanitar atəşkəs rejiminin tələblərini pozaraq, döyüş meydanındakı ağır məğlubiyyətlərinin əvəzini çıxmaq üçün Azərbaycanın münaqişə və cəbhə zonasından uzaqda yerləşən şəhər və rayonlarındakı mülki infrastruktur obyektlərini atəşə tutub. Belə ki, erməni hərbi birləşmələri yaşayış evlərini, xəstəxanaları, tibb məntəqələrini, məktəb binalarını, uşaq bağçalarını, dövlət qurumlarının inzibati binalarını, təsərrüfat təyinatlı ərazilərini hədəf seçib, müxtəlif növ silahlarla, ballistik raketlərlə, eyni zamanda, qadağan olunmuş artilleriya silahları ilə atəşə tutaraq insanlıq və sülh əleyhinə, habelə müharibə cinayətləri törədib, müharibəyə hər hansı aidiyyəti olmayan, gündəlik qayğıları ilə yaşayan mülki şəxsləri vəhşicəsinə qətlə yetirib, mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə irimiqyaslı zərər vurublar.

### Cinayətkarlar məhkəmə qarşısındadır

Ermənistan hərbi birləşmələrinin 44 gün sürən Vətən müharibəsinin gedişatında bir neçə iri şəhəri, o cümlədən yarım milyondan çox əhali yaşamaqla Azərbaycanın ikinci böyük şəhəri, çoxsaylı tarixi və mədəni abidələri olan qədim Bərdəni hədəf alması 1988-ci ildən davam etdirilən təcavüzkar siyasətin tərkib hissəsi idi.

Ümumilikdə, Vətən müharibəsində 100-dən çox mülki insan erməni terroru nəticəsində həyatını itirib. Erməni silahlı qüvvələrinin bu hücumları təşkil edərkən əsas məqsədləri daha çox insanın həyatına son qoymaq olduğundan, məhz şəhərin mülki şəxslərin kompakt yaşadığı hissələri hədəfə alınıb.

Xatırladaq ki, müharibə dövründə Qarabağdakı erməni separatçılarının başçısı Arayik Arutunyanın özü Azərbaycanın döyüş bölgəsindən uzaq olan yaşayış məntəqələrinə raket hücumu əmrini verdiyini etiraf etmişdi. Hazırda Arayik və digər separatçılar, günahsız insanların qatilləri Bakıda həbsxanadadırlar. Onların məhkəməsi davam edir. Bu terrorçular layiq olduqları cəzanı alacaqlar.

*Nardar BAYRAMLI*

# Ramiz Mehdiyevin riyakar xislətini nümayiş etdirən məktub

Prezident Administrasiyasının və Milli Elmlər Akademiyasının sabiq rəhbəri Ramiz Mehdiyevin Azərbaycanda dövlət çevrilişi həyata keçirmək istədiyi və bununla bağlı Rusiyanın müəyyən strukturlarının rəhbərlərinə məktub ünvanladığı barədə mediada məlumat verilib.

Həmin məktubun Azərbaycan xüsusi xidmət orqanlarının əlinə keçdiyi barədə də informasiyalar yayılmışdı.

Bəziləri belə məktubun olmadığını, onun mövcudluğuna inanmadıqlarını iddia etsələr də, təqdim etdiyimiz fakt Ramiz Mehdiyevin, həqiqətən də, xarici ölkənin köməyi ilə Azərbaycanda hakimiyyət çevrilişi planı gerçəkləşdirmək xülyasına düşdüyünü göstərir.

“Yeni Azərbaycan” qəzeti APA-ya istinadən Ramiz Mehdiyevin ünvanladığı məktubu təqdim edir.

*Məktubun Azərbaycan dilinə tərcüməsini diqqətinizə çatdırırıq:*

**“Dövlət idarəetmə sistemində islahatlarla bağlı təkliflər**

Son illərdə dövlət idarəetmə sistemini, həmçinin Azərbaycanın iqtisadi həyatını bürüyən dərin böhran, radikal islahatlar və dəyişikliklərin həyata keçirilməsini tələb edir.

Əgər bir tərəfdən mövcud idarəetmə strukturunun qeyri-səmərəliliyi hazırkı hakimiyyətin xarakteri, əxlaqı və baxışları ilə izah olunursa, digər tərəfdən bu struktur köləlik və avtoritar ruhla iflic olmuş bir vəziyyətdədir.

Bu idarəetmə sisteminin əsas xüsusiyyətləri yalnız referendum yolu ilə dəyişdirilə bilər.

Yeni dövlət idarəetmə modelini və prinsiplərini işləyib hazırlayarkən, ilk növbədə Azərbaycan xalqının siyasi psixologiyasını, onun dövlətdən olan ənənəvi gözləntilərini nəzərə almaq, həmçinin ölkənin sosial-iqtisadi həyatında durğunluğa səbəb olan əsl amilləri müəyyən edib aradan qaldırmaq lazımdır.

Mənim uzunillik idarəetmə təcrübəm, strateji dövlət orqanlarına rəhbərlik etdiyim dövrlərdə topladığım biliklər, həmçinin müasir Azərbaycanın siyasi həyatına və tarixə dair elmi tədqiqatlarım mənə aşağıdakı dövlət idarəetmə sisteminin formalaşdırılmasının zəruriliyini göstərir:

1. Hakimiyyət, ümumqəbul edilmiş demokratik prinsiplərə uyğun olaraq, üç qoldan ibarət olacaq: qanunverici, icraedici və məhkəmə.

Bu hakimiyyət qollarının fəaliyyətinə nəzarəti Dövlət Şurası həyata keçirəcək. Şura 50 nəfərdən - tanınmış və təcrübəli dövlət xadimləri, iqtisadçılar, hüquqşünaslar, elm və mədəniyyət nümayəndələrindən ibarət olacaq, cəmiyyətdə nüfuzu olan şəxslər seçiləcək.

Bu orqan seçkili olacaq və ümummilli səsvermə nəticəsində formalaşacaq. Şuraya Dövlət Şurasının Sədri rəhbərlik edəcək, o, xalq tərəfindən seçilmiş Şura üzvləri arasından seçiləcək.

Sədri vəzifəsindən uzaqlaşdırmaq da yalnız Dövlət Şurası üzvlərinin səsverməsi nəticəsində mümkün olacaq.

Dövlət Şurası ölkədəki siyasi və sosial-iqtisadi proseslər üzərində tam nəzarət mexanizminə malik olacaq, həmçinin Konstitusiya Məhkəməsinin və Milli Təhlükəsizlik Şurasının funksiyalarını yerinə yetirəcək. Dövlət Şurası parlament tərəfindən qəbul edilən qanun layihələrini təsdiqləyəcək və hökumətin qərarlarına münasibətdə veto hüququna malik olacaq.

Dövlət Şurasının fəaliyyəti sədrin aparatının təminatı ilə həyata keçiriləcək. Dövlət Şurasının sədri dövlət başçısı üçün nəzərdə tutulan bütün səlahiyyətlərə və hüquqi toxunulmazlığa malik olacaq.

Dövlət Şurasına seçkilər hər 7 ildən bir keçiriləcək və bu müddət ərzində Dövlət Şurasının üzvləri toxunulmazlıq və sarsılmazlıq statusuna malik olacaqlar. Zəruri hallarda Dövlət Şurası üzvünün mandatı Şura sədrinin tələbi ilə, Şura üzvlərinin səsverməsi nəticəsində dayandırıla bilər. Dövlət Şurasının üzvləri fəaliyyət dövründə başqa bir işlə məşğul olmaq hüququna malik olmayacaqlar (elmi və pedaqoji fəaliyyət istisna olmaqla) və yalnız Dövlət Şurasına tabe olacaqlar.

2. İcra hakimiyyətinə ölkənin baş naziri rəhbərlik edəcək. Baş nazir parlament seçkilərinin nəticələrinə əsasən, ən çox səs toplayan partiyanın rəhbəri arasından seçiləcək. Həmin partiyanın sədrinə sosial-iqtisadi siyasətin həyata keçirilməsinə cavabdeh olan hökuməti formalaşdırmaq hüququ veriləcək.

3. Qanunverici hakimiyyət ölkə parlamenti tərəfindən həyata keçiriləcək. Parlament ümummilli seçkilər nəticəsində hər 7 ildən bir formalaşacaq. Parlament hökumətin fəaliyyətinə dair hesabatı qəbul edəcək, sosial-iqtisadi siyasətin həyata keçirilməsinə cavabdeh olan nazirləri baş nazirin təqdimatı əsasında (gücü strukturları rəhbərləri istisna olmaqla) vəzifəyə təsdiq edəcək.

4. Məhkəmə hakimiyyəti əvvəlki kimi Ali Məhkəmə və digər müvafiq məhkəmə orqanları tərəfindən həyata keçiriləcək.

Belə dəyişikliklər ölkəni prezident idarəetmə formasından parlament respublikası rejiminə keçirəcək, hakimiyyət üzərində səmərəli nəzarət mexanizmini təmin edəcək. Bu, həmçinin avtoritarizm və vahid idarəetmə meyllərinin əsaslarını xeyli dərəcədə neytrallaşdıracaq, dövlətin fəaliyyəti üzərində ictimai nəzarəti gücləndirəcək.

Eyni zamanda bu model demokratik seçkilərin keçirilməsinə imkan yaradacaq ki, bu da ölkənin beynəlxalq imicini əhəmiyyətli dərəcədə yaxşılaşdıracaq, müxtəlif siyasi qüvvələrin fəaliyyət spektrini genişləndirəcək və nəticə etibarilə vətəndaş cəmiyyətinin əsaslarını möhkəmləndirəcək.

*Ramiz Mehdiyev - AMEA akademiki”*

**P.S. Belə bir planı həyata keçirmək nə Ramiz Mehdiyevin, nə də onun əlaqə qurduğu dairələrin imkanında deyil. Sadəcə, buna cəhd etmək onun əsl riyakar xislətini nümayiş etdirir.**



Предложения о преобразованиях в системе государственного управления

Глубокий кризис, охвативший за последние годы систему государственного управления, а также экономическую жизнь в Азербайджане, требует проведения радикальных реформ и преобразований. Если, с одной стороны, неэффективность существующей структуры управления объясняется характером, нравами и взглядами нынешней власти, то с другой – эта структура связана порабощенным, парализованным авторитаризмом духом. Основные черты этой системы управления могут быть изменены лишь посредством референдума.

При выработке нового облика и принципов государственного управления необходимо учесть в первую очередь политическую психологию азербайджанского народа, его традиционные ожидания от государства, понять и устранить истинные причины стагнации системы социально-экономической жизни страны, препятствующей её всестороннему развитию.

Многолетний управленческий опыт, накопленный мной будучи руководителем стратегических государственных органов, а также мои постоянные научные исследования по вопросам истории и проблемам политической жизни современного Азербайджана подсказывают мне необходимость формирования нижеследующей системы государственного управления:

1. Власть, согласно общепринятым демократическим принципам, будет состоять из трех ветвей: законодательной, исполнительной и судебной. Контроль над деятельностью этих ветвей власти будет обеспечивать **Государственный совет**, состоящий из 50 членов – видных и опытных государственных деятелей, экономистов, правоведов, представителей науки и культуры, пользующихся авторитетом в обществе. Этот орган будет выборным и будет формироваться в результате общенационального голосования. Возглавит совет Председатель Государственного совета, которого в свою очередь из своих рядов выберут уже избранные народом члены Госсовета. Отстранить Председателя от занимаемой им должности также могут только лишь члены Государственного совета в результате голосования.

Государственный совет будет обладать всей полнотой власти и механизмом контроля над политическими и социально-экономическими процессами в стране, также он будет исполнять функции Конституционного суда и Совета безопасности страны. Государственный совет будет утверждать законопроекты, принятые парламентом, и



постановления правительства республики, выдвигать кандидатов на посты глав силовых структур и судебной власти, Центрального банка и ректоров университетов. Соответственно, за Советом будет закреплено право на вето, которым он может пользоваться в случае необходимости в отношении законопроектов парламента и постановлений правительства.

Деятельность Государственного совета будет обеспечивать аппарат председателя. Председатель Государственного совета будет пользоваться всеми полномочиями и правовым иммунитетом, предназначенным для главы государства.

Выборы в Государственный совет будут проводиться каждые 7 лет, и в течение этого срока члены Государственного совета также будут пользоваться иммунитетом и неприкосновенностью. В случае необходимости мандат члена Государственного совета может быть приостановлен по требованию председателя Госсовета по итогам голосования членов совета. Члены Государственного совета в период своего пребывания в данном органе не будут иметь права заниматься какой-либо деятельностью, за исключением научно-педагогической, и будут подотчетны только лишь Государственному совету.

2. Исполнительную власть в стране возглавит премьер-министр страны, который будет избираться по итогам выборов в парламент. Председателю партии, набравшей наибольшее количество голосов по итогам парламентских выборов, будет предоставлено право сформировать правительство, ответственное за реализацию социально-экономической линии государства.

3. Законодательную ветвь власти будет представлять парламент страны, который будет формироваться через каждые 7 лет в результате общенациональных выборов. Парламент будет принимать отчет о деятельности правительства, утверждать на посту министров, ответственных за реализацию социально-экономической политики, с представления главы правительства (за исключением руководителей силовых структур).

4. Судебную власть, как и прежде, будет осуществлять Верховный суд страны и его соответствующие структуры.

Подобные изменения переведут страну из режима президентской республики в режим парламентской республики с эффективным механизмом контроля над властью. Они же позволят в значительной мере нейтрализовать зачатки и основы авторитаризма и единовластья, а также



усилят общественный контроль над деятельностью государства.

Наряду с этим подобная схема даст возможность проводить демократические выборы, которые в значительной мере улучшат международный облик страны и откроют широкий спектр деятельности для различного рода политических сил, что в свою очередь укрепит основы гражданского общества.

Рамиз Мехтиев –

академик НАНА



# Fiziki sağlamlıq və mənəviyyat...

## Uşaq və gənclər üçün ən böyük sərmayə

Müasir dövrdə texnologiyanın təsiri ilə uşaq və gənclərin fiziki fəaliyyəti azalır. Təbii ki, bu vəziyyət valideynlərin və müəllimlərin diqqətini daha da artırır. Uşaqların balanslı inkişafı üçün onlara həm idman imkanları yaratmaq, həm də mənəvi zənginliyini dəstəkləyəcək mühit təqdim etmək vacibdir.

Nəticə etibarilə, uşaq və gənclərin fiziki və mənəvi inkişafı cəmiyyətin inkişafının göstəricisidir. Sağlam bədən və düzgün formalaşmış şəxsiyyət yalnız fərdi uğur gətirmir, həm də ölkənin gələcəyi üçün vacibdir. Hər bir valideyn və müəllim bu məsuliyyəti dərk etməli, gənc nəsli sağlam və mənəvi zəngin şəkildə böyütmək üçün əlindən gələni etməlidir.

**Mənəvi inkişaf üçün əsas komponentlər**

Mövzu barədə "Yeni Azərbaycan"a açıqlama verən psixoloq Kübra Tahirova bildirib ki, uşaqların sosiallaşmasında onları əhatə edən insanların təsiri böyükdür. Onun sözlərinə görə, uşaqlar adətən, təqlid etməyə, davranışları mənimsəməyə meyillidirlər: "Onların sosiallaşması bununla məhdudlaşmır. Məktəbəqədər yaşlı uşaqlar böyüklərin həyatı ilə bir çox cəhətdən - müşahidə etməklə, dinlədikləri nağıllar, şeirlər vasitəsilə tanış olurlar. Onun üçün nümunə başqalarının sevgisini, hörmətini qazanan insanların davranışıdır. Həmyaşıdlarının da davranışı uşaq üçün nümunə ola bilər.



Müasir uşaqlar üçün 6-7 yaşa qədər məktəbəqədər uşaqlıq dövrü başa çatır. Ümid edək ki, əsas vəzifələrdən biri yerinə yetirilib - uşağın inkişaf edən şəxsiyyətində zəruri bilik və bacarıqlarla yanaşı, humanist, insani dəyərlər də yer alır. Bütün bunlar isə uşaqların mənəvi inkişafı üçün əsas komponentlərdən biridir".

**Valideynlərin diqqətli olması vacibdir...**

Psixoloq ailə sistemində baş verənlərin uşağın emosional vəziyyətinə və inkişafına təsirləri ilə bağlı məqama da toxunub. O, qeyd edib ki, uşağın emosional vəziyyətinə, ümumiyyətlə, ailədəki münasibətlər, xüsusən də uşağın ailə üzvləri ilə münasibəti təsir göstərir: "Uşaq emosional reaksiyaları valideynlərindən və ailə üzvlərindən öyrənir. Yəni uşaqlar böyüklərdən ətrafdakı insanlarla qarşılıqlı əlaqənin əsas nümunələrini öyrənirlər. Uşaqların stressdən və gərginlikdən uzaq durmaları da mühüm məsələ kimi dəyərləndirilir. "Emosional stress" qeyri-spesifik adaptiv gərginlikdir və bədənin xarici mühitinin patogen təsirinə reaksiyaları, həddindən artıq güc və ya mənfi müddətlə vasitəçilik edən amildir. Bu amillərin hər biri də uşaqların mənəvi inkişafına təsirsiz ötüşmür. Ona görə də valideynlərin diqqətli olması vacibdir".

**Məktəbəqədər müəssisələrin rolu...**

K.Tahirova qeyd edib ki, ailə ilə yanaşı, məktəbəqədər müəssisələr də uşaqların əqli, fiziki, mənəvi, sosial-emosional inkişafında əhəmiyyətli rol oynayır: "İlk növbədə onların sosiallaşmasını təmin edir. Uşağın öz ailəsi xaricində güvənli bir mühitdə də sosiallaşması olduqca vacibdir. Məktəbəqədər müəssisədə, xüsusilə ailənin tək övladı olan uşaqların həmyaşıdları ilə eyni şəraitdə paylaşmağı öyrənmələri asanlaşır. Beləliklə, uşaqlar dinləmək, hörmət etmək və kollektiv fəaliyyət göstərmək kimi təməl prinsipləri erkən yaşda qavraya bilirlər.

Məktəbəqədər yaş dövrünün sonunda uşaqların hissləri və təcrübələri daha mürəkkəb və fərqli olur. Emosionallığı və təəssürat qabiliyyətini qoruyub saxlayaraq, əvvəlki sadəlövhlük və inandırıcılıq artıq mövcud deyil. Özünənəzarət, özünütənqid, öhdəliklərin artması, günahkarlıq hissləri, ədalət, gözəl və çirkin kimi ifadələri anlamağa başlayırlar. Uşaqla münasibətlərdə böyüklər incə şəkildə emosional təsir formalarını seçməlidirlər. Uşağa emosiyaların müsbət və mənfi təsir formaları kortəbii olaraq yaranmamalı, bir növ ünsiyyət texnikasına çevrilməlidir. Burada əsas fon müsbət emosiyalardır və günahlandırma forması kimi istifadə olunur. Məktəbəqədər yaşlı uşağın şəxsiyyətinin inkişafında həmyaşıdları ilə ünsiyyətin ona göstərdiyi təsirin mühüm rolu var. Məktəbəqədər yaşlı uşağın sosial-emosional inkişafı ilə bağlı bir məqamı da vurğulayım ki, insanın dünyaya qayğı ilə baxmaq qabiliyyəti, xoşbəxt olmaq bacarığı məhz mənəvi keyfiyyətlərin aşılanması üçün mühüm məsələdir. Bu istiqamətdə ailə və məktəbəqədər müəssisə bir-biri ilə qarşılıqlı vəhdətdə prosesləri yerinə yetirməlidirlər".

*Yeganə*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti üzrə hazırlanmışdır**

# Tbilisidə etirazlar davam edir...

## Görünən reallığın pərdəarxası məqamları

**Qonşu Gürcüstanda ötən il parlament və prezident seçkiləri ciddi ajiotajlarla müşayiət olundu. Seçkilər baş tutsa da, Tbilisi küçələrində günlərlə etiraz aksiyaları keçirildi, həbslər baş verdi. Eyni vəziyyət cari il oktyabrın 4-də yerli özünüidarəetmə orqanlarına keçirilən seçkilərlə də bağlı təkrarlanır. Aradan xeyli vaxt ötməsinə baxmayaraq, qonşu ölkə yenə də etirazlarla çalxalanır. Verilən məlumatlara görə son bir neçə gün ərzində Gürcüstan Daxili İşlər Nazirliyinin əməkdaşları 60 etirazçını saxlayıb. Onların toplantı və nümayişlərin keçirilməsi qaydalarını pozduqları bildirilir. Patrul polisi dəfələrlə etirazçıları qanunsuz hərəkətlərdən çəkinməyə çağırsa da, nümayişçilər yenidən yolu bağlayaraq nəqliyyatın hərəkətini pozublar. Daxili İşlər Nazirliyi bir daha etirazçıları qanunsuz hərəkətlərdən çəkinməyə çağırıb, bildirilib ki, əks təqdirdə, qanuni məsuliyyətə cəlb olunacaqlar.**

### Cəmiyyətdə etirazlara sosial sifariş yoxdur

Bəs insanlar, xüsusilə də gənclər niyə hər seçki ərəfəsində etirazlara başlayırlar? Onları küçələrə çıxmağa, saatlarla, bəzən də günlərlə parlament binası önündə dayanmağa, avtomobil yollarını bağlamağa sövq edən amillər nədən qaynaqlanır?

Ötənilki parlament və prezident seçkiləri kimi, yerli özünüidarəetmə orqanlarına oktyabrın 4-də keçirilən seçkilər də artıq tarixdir. Qonşu ölkədə son bələdiyyə seçkiləri 12 siyasi partiyanın iştirakı ilə keçirilib. Onların sırasında "Vətən, Dil, İnam", "Mühafizəkarlar Gürcüstan üçün", "Bizim Vahid Gürcüstanımız", "Azad Gürcüstan", "Patriotlar Alyansı", "Güclü Gürcüstan - Lelo", "Gürcüstan", "Yaşıl Partiya", "Xalq hökuməti", "Gürcüstan üçün Qaxariya", "Qırçı" və hakim "Gürcü Arzusu - Demokratik Gürcüstan" partiyaları olub. Bələdiyyə seçkilərində də hakim "Gürcü Arzusu - Demokratik Gürcüstan" partiyası qalib gəlib. "Gürcü Arzusu" partiyasının rəhbərliyi seçkilərin nəticəsini xalqın hakim partiyaya olan etimadının göstəricisi kimi qiymətləndirib. "Biz xalqın bu etimadını çox yüksək qiymətləndiririk və bir daha söz veririk ki, bu etimadı doğrultmaq üçün əlimizdən gələni edəcəyik", - deyə Baş nazir İrakli Kobaxidze vurğulayıb.

Aydın məsələdir ki, qonşu ölkədə xalqın iradəsi ilə baş tutan seçkilərin nəticələrinin hansısa bir formada dəyişdirilməsi mümkün deyil. Əslində, seçkilərin nəticələrinə ictimai müqavimət çox zəifdir. Bu, hansısa bir formada yalnız paytaxtda müşahidə edilir. Buradan da aydın olur ki, Tbilisidəki kiçik etirazlar bütövlükdə xalqın tan Aİ-yə üzv qəbul edilməklə şirniklendirilirdi və bunun müqabilində rəsmi Tbilisidən siyasi oriyentasiyasını dəyişmək tələb olunurdu. "Gürcü Arzusu - Demokratik Gürcüstan" iqtidarı isə ölkənin milli maraqlarını Aİ-yə üzvlüyə qurban verməyəcəyini bəyan etdi. Hakim komanda həmçinin parlamentdə bir sıra milli maraqları hə-



sosial sifarişi deyil.

Analitiklər baş verənləri rəsmi Tbilisi ilə Brüssel arasında kəskinləşən münasibətlərin tərkib hissəsi kimi dəyərləndirirlər və burada həqiqət payı böyükdür. Avropa İttifaqı (Aİ) Gürcüstanda Brüsseldən gələn siyasi sifarişləri mütləq qaydada yerinə yetirən bir rejim arzulayır və bu istiqamətdə fəaliyyətlər sərgiləyir. Son illərdə Gürcüs-

dəfləyən qanunlar qəbul etməklə özünün prinsipial siyasi iradəsini təsdiqləmiş oldu. Buna görə də son illərdə rəsmi Tbilisi ilə Brüssel arasında ixtilaflar yaşanır və münasibətlər müxtəlif istiqamətlərdə pisləşməkdə davam edir. Qonşu ölkədə görünən reallığın pərdəarxası məqamları məhz bu amildən qaynaqlanır.

### Aİ-yə yol bağlanır

Gürcüstanla Aİ arasında münasibətlərin kəskinləşməsi fonunda qarşılıqlı ittihamlar da səngimir. Avropa İttifaqının Gürcüstandakı səfiri Pavel Herçinski bildirib ki, Gürcüstan hakimiyyətinin son dövrlərdə qəbul etdiyi bir sıra qanunlar Aİ prinsiplərinə və dəyərlərinə ziddir və bu səbəbdən ölkənin ittifaqa üzvlük perspektivi təhlükə altına düşüb.

Səfirin sözlərinə görə, Aİ Gürcüstana namizəd statusu verməklə onun üzvlüyünə yol açıb, lakin bu yol yalnız Aİ qanunvericiliyinə uyğun islahatların aparılması ilə mümkündür. "Bunun baş verməsi üçün Gürcüstan tərəfindən bizdən birinə çevrilməlidir və bunun üçün əsas şərt Aİ-də mövcud qanun və qaydaların qəbul edilməsidir. Təəssüf ki, 2023-cü ilin dekabrından etibarən Gürcüstan hakimiyyəti əks istiqamətdə hərəkət edir və Aİ prinsiplərinə zidd qanunlar qəbul edir", - deyə səfir bildirib.

Herçinski vurğulayıb ki, "Xarici təsirin şəffaflığı haqqında qanun" və "Xarici agentlər haqqında akt" kimi qanunların Avropa qanunvericiliyi ilə heç bir ortaq cəhəti yoxdur. Fikirlərinə davam edən səfir vurğulayıb: "Bu, acı bir reallıqdır. Son illərdə qəbul edilən bir çox qanun - şəffaflıq, qrantlar, yayım və digər sahələr üzrə dəyişikliklər - Aİ-nin qurulduğu prinsiplərə ziddir. Bunu demək mənim üçün çətindir, amma Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasın dediyi kimi, bu qanunlarla Gürcüstanın Aİ üzvü olması qeyri-mümkün olacaq".

Eyni zamanda, hazırda Gürcüstanla Aİ arasında viza rejiminin dəyişdirilməsi də müzakirə mövzusudur. "Avropa Komissiyası ilin sonuna kimi Gürcüstanla viza rejiminin dəyişdirilməsi və ayrı-ayrı şəxslərə qarşı sanksiyalarla bağlı öz təkliflərini hazırlayacaq". Bu barədə Aİ ölkələrinin Xarici Əlaqələr Şurasının yekunlarına həsr olunmuş mətbuat konfransında Avropa diplomatiyasının rəhbəri Kaya Kallas bildirib. Onun sözlərinə görə, Avropa Komissiyası ilin sonuna qədər viza rejiminin dayandırılması mexanizmi ilə bağlı hesabat təqdim edəcək, yeni viza tənzimləməsi isə noyabrda qüvvəyə minəcək.

### EPDE-nin "saxta müşahidəçilər" siyahısı

Həmçinin Gürcüstanın Mərkəzi Seçki Komissiyası (MSK) Avropa Demokratik Seçkilər Platformasının (EPDE) son bəyanatını əsassız və seçki prosesinə zərbə vurmaq cəhdi kimi dəyərləndirib. Bildirilib ki, EPDE-nin təkrarlanan ittihamları təşkilatın obyektivliyinə dair suallar doğurur.

Komissiyanın açıqlamasına görə, EPDE-nin MSK-ya ünvanladığı müraciətlər seçki administrasiyasının səlahiyyətlərini şübhə altına qoyur. MSK vurğulayır ki, seçki müşahidəçilərinin qeydiyyatı meyarları və onların hüquqları açıq şəkildə müəyyən edilib və bu məlumatlar komissiyanın rəsmi saytında yerləşdirilib.

MSK EPDE-nin "saxta müşahidəçilər" siyahısını da tənqid edib və həmin siyahıda yer alan şəxslərin bəzilərinin yalnız peşəkar, texniki qiymətləndirmə apardığını, digərlərinin isə missiya çərçivəsində heç bir qiymətləndirmə aparmadığını bildirib.

Açıqlamada qeyd olunur ki, beynəlxalq təcrübədə digər ölkələrin seçki administrasiyalarının qarşılıqlı şəkildə müşahidə missiyalarını göndərməsi adi haldır və ötən il EPDE özü belə bir müşahidə missiyasının iştirakı ilə bağlı heç bir etiraz etməyib. MSK EPDE-dən niyə indi bu məsələnin problemə çevrildiyini izah etməyi tələb edir.

Komissiyadan vurğulanıb ki, 4 oktyabr seçkiləri həm yerli, həm də beynəlxalq müşahidə təşkilatları tərəfindən izlənilib və seçkilərin nəticələri siyasi partiyalar tərəfindən tanınıb.

### Brüsselin təzyiq cəhdləri qəbuledilməzdir

Gürcüstan hakimiyyəti isə Aİ-yə üzvlük prosedurundan ölkəyə münasibətdə təzyiq vasitəsi kimi istifadə edilməsinə qarşıdır. Hakimiyyət milli maraqlara əsaslanan siyasi kursa sadiqliyini bəyan edir. Baş nazir İrakli Kobaxidze Avropa Komissiyasının qrant siyasəti ilə bağlı sualı cavablandırarkən bildirib ki, Gürcüstan hökuməti Avropa İttifaqının ölkəyə münasibətinin dəyişəcəyinə ümid bəsləyir. O, Aİ-nin Gürcüstanla bağlı siyasətinə yenidən baxılacağını və qurumun son nəticədə gürcü xalqına qarşı düzgün siyasətlə razılaşacağını söyləyib. Baş nazir vurğulayıb ki, bəzi qüvvələr Gürcüstanda sabitliyi pozmaq cəhdlərində birbaşa iştirak edirlər: "Biz görürük ki, müəyyən şəxslər və qüvvələr Gürcüstanda inqilab təşkil etməyə cəhd göstərirlər. Bu, Avropa İttifaqının obyektiv maraqlarına xidmət etməyən siyasətdir", - deyə İ.Kobaxidze əlavə edib.

İ.Kobaxidze qeyd edib ki, Gürcüstan hökuməti ölkənin suverenliyini və milli maraqlarını qorumaqda qətiyyətlidir və tərəfdaşlarla münasibətlərdə qarşılıqlı hörmət və bərabərlik prinsiplərinə əsaslanmaqda israrlıdır.

Aİ-yə etiraz açıqlaması həmçinin Gürcüstanın xarici işlər naziri Maka Boçorişvilidən gəlib. O bildirib ki, Avropa İttifaqının vizasız rejimin ləğvi ilə bağlı təhdidləri əsassızdır. "Hamı aydın gördü ki, vizasız gediş-gəlişin ləğvi barədə danışmaq və bununla Gürcüstana təzyiq göstərmək əsassızdır. Avropa İttifaqı bir qələmlə vizasız rejimi siyasət alətinə çevirməyə hazır deyil", - deyə Boçorişvili bildirib.

Nazirin sözlərinə görə, Aİ-də bu ideyanın həyata keçirilməsinə kifayət qədər dəstək yoxdur və vizasız rejimin dayandırılması istiqamətində konkret addım atılması gözlənilmir.

### Gürcüstan Avronestə "yox" deyir

Bundan başqa, Gürcüstan 28-30 oktyabr tarixlərində Avronestin Parlament Assambleyasının İrəvanda keçiriləcək 12-ci plenar sessiyasında iştirak etməkdən imtina edib. Gürcüstan KİV-i xəbər verir ki, parlamentin Avrointeqrasiya Komitəsinin sədri Levan Maxaşvili Avronestin rəhbərliyinə açıq məktubla müraciət edərək, bu qərarın səbəbini bəzi Avropa Parlamenti deputatlarının düşmən ritorikası və onların Tbilisidəki etiraz aksiyalarına qoşulmasının qarşılıqlı hörmət prinsiplərinə zidd olması və parlament diplomatiyası çərçivəsindən kənara çıxması ilə izah edib.

Məktubda o qeyd edib ki, Avronest Assambleyasındakı Avropa Parlamentinin nümayəndə heyətinin bəzi üzvləri "ölkədə ictimai iğtişaşları, radikallaşmanı və zorakılığı təşviq edən" bəyanatlar veriblər.

"Bu şəxslərə tribuna verməklə Avronest qeyri-demokratik davranışı təşviq edir, həmçinin zorakı və ya radikal siyasi proqramları əsaslandırır", - deyə məktubda vurğulanıb.

*Mübariz FEYİZLİ*

# Dünya yeni təhdiddən narahatdır...

## Rusiya "Burevestnik"i sınaqdan keçirdi

**Beynəlxalq aləm son günlər Ukrayna-Rusiya cəbhəsində baş verənləri narahatlıqla izləyir. Daha çox siyasi bəyanatların güclənməsi fonunda inkişaf etdirilən qarşıdurma yeni müstəviyə qədəm qoyub. Ukraynanın ABŞ-dan "Tomoqavk" raket sistemləri istəməsinin ardından bu dəfə Rusiya yeni qanadlı nüvə raketinin nümayişini reallaşdırıb. Belə ki, Rusiya ordusunun baş qərargah rəisi Valeri Gerasimov raketin hazır olması ilə bağlı çıxış edib. Prezident Putinlə Gerasimovun görüşündə raketin yeni istifadə imkanları dəyərləndirilib. Putin uğurlu sınaqlardan sonra Rusiya ordusunda "Burevestnik" raketinin yerləşdirilməsi üçün infrastrukturun hazırlanması ilə bağlı əmr verib. O, "Burevestnik"i unikal bir inkişaf adlandırıb: "Bu, dünyada heç kimin sahib olmadığı bir məhsuldur. Mümkün istifadə sahələrini müəyyən etməli və bu silahı silahlı qüvvələrdə yerləşdirmək üçün infrastrukturu hazırlamağa başlamalıyıq." Maraqlı detallardan biri Vladimir Putinin uzun müddətdən sonra auditoriya qarşısına hərbi mundirdə çıxması olub. Qeyd edək ki, 4 ilinin bitməsinə az qalan müharibə dövründə Putin hərbi səhra geyimində xalq qarşısına çıxmamışdı. Bir çox siyasi analitiklər bu addımı həm Ukraynaya, həm də Qərbə "mesaj" hesab edir. Belə ki, Putinin yeni qanadlı nüvə raketini məhz hərbi geyimdə "elan etməsi" birmənalı qarşılanmayıb...**

## 15 saat havada qalır, 14 min kilometr uçur



Baş Qərargah rəisi bildirib ki, "Burevestnik" raketi 21 oktyabrda sınaqdan keçirilib - raket 14 min km məsafə qət edib və təxminən 15 saat havada qalıb. Gerasimov iddia edib ki, "Raketin texniki xüsusiyyətləri onun istənilən məsafədə yüksək səviyyədə qorunan hədəflərə qarşı zəmanətli dəqiqliklə istifadəsinə imkan verir".

Yeri gəlmişkən, Rusiya Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedev sosial şəbəkə platforması X.com-da (keçmiş Twitter) "Burevestnik" qanadlı raketinin uğurlu sınağını elan edib. "Rusiyanın bütün dostlarını nüvə mühərriki və döyüş başlığı ilə təchiz edilmiş, uçuş məsafəsi limitsiz olan "Burevestnik" (Fırtına quşu) qanadlı raketinin uğurlu sınağı münasibətilə təbrik edirəm."

Qeyd edək ki, Burevestnik" (GRAU indeksi 9M730, NATO təyinatı SSC-X-9 Skyfall) nüvə energetik qurğusuna malik olan qlobal mənzilli qitələrarası qanadlı raketdir. Rusiya Prezidenti Vladimir Putin bu raketin hazırlanmasını ilk dəfə 1 mart 2018-ci ildə Federal Məclisə etdiyi müraciətdə bildirmişdi. Prezidentin çıxışı zamanı sınaqdan keçirilən raket sisteminin videogörüntüləri nümayiş etdirilmişdi. 22 mart 2018-ci ildə Rusiya Müdafiə Nazirliyinin veb saytında açıq səsvermədən sonra bu raketə "Burevestnik" adı verilib. Raketin gövdə ölçüləri X-101 kruiz raketinin ölçüləri ilə üst-üstə düşür və kompakt nüvə enerji bloku ilə təchiz olunub. Raketin uçuş məsafəsi isə X-101-dən on dəfə çoxdur. Ölçülərinə gəldikdə isə, buraxılış zamanı uzunluğu 12 m, uçuş zamanı 9 m, gövdənin frontal proyeksiyası elliptikdir, ölçüsü 1 x 1,5 m-dir. Qeyd edək ki, hələ bir müddət əvvəl İllinoys Texnologiya İnstitutunun fizika professoru Ceff Terri "Tomaqavk" qanadlı raketi ilə analogiyalarını müqayisə edərək "Burevestnik"in mühərrikinin qeyri-istilik gücünü təxminən 766 kVt olaraq qiymətləndirmişdi. Bununla da o, raketin müasir nəsil kompakt nüvə reaktorunun potensial güc diapazonuna uyğun olduğu qənaətinə gəlmişdi. Sınaqlar zamanı "Burevestnik"in uçuş müddəti 15 saat olmuşdu və bu müddət ərzində raket 14 min km məsafə qət etmişdi. Qeyd edək ki, Rusiya KİV-lərinin məlumatına görə, "Burevestnik" raketi 2027-ci ilə qədər istifadəyə qəbul edilməyəcək - onun döyüş potensialı 5 fevral 2026-cı ilə qədər uzadılmış Rusiya-Amerika Strateji Silahların Azaldılması Müqaviləsinə (Yeni START) də daxil deyil.

Hələ 2023-cü ilin oktyabr ayının əvvəlində "The New York Times" qəzeti Planet Labs şirkətinin peyk görüntülərinə istinadən Novaya Zemlya arxipelağındakı buraxılış məntəqəsində nüvə mühərrikli "Burevestnik" qitələrarası raketinin sınaqlarının mümkün hazırlığı və ya tamamlanması barədə məlumat yaymışdı. Bir neçə gün öncə, oktyabrın 26-da isə Kremlin mətbuat xidməti baş qərargah rəisi Valeri Gerasimovun "Burevestnik"in uğurlu sınaqdan keçirildiyini elan etdiyi bir video yayımlamışdı. NATO tərəfindən "Skyfall" ləqəbi ilə tanınan "Burevestnik" raketi 10 ildən çoxdur ki, hazırlanır. Vaşinqton Nüvə Təhdidi Təşəbbüsünün 2019-cu il tarixli hesabatına görə, "Skyfall" "nüvə başlığı daşıyacaq, aşağı hündürlükdə dünya orbitində fırlanacaq, raketdən müdafiə sistemlərindən və ərazidən yayınacaq və sonra döyüş başlığını gözlənilməz bir yerə atacaq".




## Trampdan bəyanat: Rusiya unutmamalıdır ki....

Rusiyanın yenidən nüvə təhdidinə "müraciət" etməsinə isə ABŞ-ın cavabı daha sərt olub. Prezident Donald Tramp Rusiyanın "Burevestnik" raketinin sınaqlarının başa çatması ilə bağlı şərhində deyib ki, dünyanın ən yaxşısı olan Amerika nüvə sualtı qayığı Rusiya sahillərində yerləşir, ona görə də ABŞ-ın Rusiyanın silahlarını təqib etməsinə ehtiyac yoxdur. "Onlar bilirlər ki, bizim onların sahillərində dünyanın ən yaxşı nüvə sualtı qayığımız var", - deyən Tramp əlavə edib ki, Ukraynadakı münaqişə nöqteyinəzərdən Rusiyanın "Burevestnik" haqqındakı açıqlaması "yersizdir". Onun fikrincə, hərbi sınaqlar əvəzinə, hərbi əməliyyatlara son qoyulmalıdır. Tramp həmçinin "Burevestnik" haqqında danışarkən Rusiya və ABŞ-ın bir-biri ilə oyun oynamadığını vurğulayıb. Bir neçə gün əvvəl o, ABŞ-ın nüvə silahı ehtiyatlarında Rusiya və Çindən irəlidə olduğunu bildirmişdi. Tramp iddia edib ki, ABŞ-ın "çoxlarının belə bilmədiyi" silahları var.

Qeyd edək ki, bu il avqustun 1-də Donald Tramp Rusiya Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedevin nüvə silahı ilə bağlı açıqlamalarından sonra müvafiq bölgələrdə iki nüvə sualtı qayığın yerləşdirilməsinə əmr verdiyini açıqlayıb. Tramp öz addımını belə izah edib: "Bu qərar ehtiyatsız və təhrikedici açıqlamaların sadəcə sözdən daha artıq olduğunu sübut etməsi ehtimalı ilə verilib".

## Budapeşt Memorandumu yenidən xatırlandı...

Qızğın nüvə müzakirəsi isə yenidən 1994-cü il dekabrın 5-də imzalanan Budapeşt Memorandumunu xatırladıb. Qeyd edək ki, Budapeşt Memorandumu - 5 dekabr 1994-cü ildə Macarıstanın paytaxtı Budapeştdə keçirilən ATƏT-in konfransında Belarus, Qazaxıstan və Ukraynanın Nüvə silahının yayılması müqaviləsinə qoşulması ilə bağlı təhlükəsizlik təminatlarını təmin etmək üçün imzalanıb. Memorandum üç nüvə dövləti, Rusiya, ABŞ və Böyük Britaniya tərəfindən imzalanmışdı, digər nüvə gücləri sayılan Çin və Fransa isə ayrı-ayrı sənədlərdə bir qədər zəif fərdi təminatlar vermişdilər. Memorandumda həmçinin Ukrayna, Belarus və Qazaxıstanın ərazi bütövlüyünə və ya siyasi müstəqilliyinə qarşı ola biləcək təhdidlərə və ya güc tətbiqinə qarşı da təhlükəsizlik təminatları öz əksini tapmışdı. Bu memorandum nəticəsində 1994-1996-cı illər arasında Belarus, Qazaxıstan və Ukrayna nüvə silahlarından imtina etmişdilər.

Qərb iddia edir ik, Rusiya isə yeni nüvə raketi sınağı ilə yenidən regionda təhdid yaradır. Rusiya isə eyni mövqeni bölüşmür - xarici işlər naziri Sergey Lavrov bildirib ki, Moskva bu sənəddə göstərilən öhdəlikləri pozduğunu düşünmür. "Rusiya tərəfi Budapeşt Memorandumunu heç bir şəkildə pozduğunu hesab etmir. Orada deyilir ki, nüvə silahlarından imtina edən digər keçmiş sovet respublikaları kimi, Ukrayna da nüvə güclərinin qeyri-nüvə dövlətlərinə verdiyi zəmanətləri alacaq. Vəssalam. Vəssalam", - deyən Lavrov əlavə edib ki, bu zəmanətlər nüvə silahlarının, Nüvə Silahlarının Yayılmaması haqqında Müqaviləyə qoşulmuş qeyri-nüvə dövlətlərinə qarşı istifadə olunmaması ilə bağlıdır.

*P.İSMAYILOV*

# Kilsə - birləşmiş müxalifət - hakimiyyət qarşıdurması şiddətlənir

## Ermənistanda nə baş verir?

Gələn ilin yayında növbəti parlament seçkilərinə hazırlaşan Ermənistanda ictimai-siyasi vəziyyət kritik dərəcədə gərgin olmaqda qalır. Məsələ burasındadır ki, bu ölkədə xarici güclərin təsir imkanları kifayət qədər böyükdür və onlar Ermənistanın siyasi kursunu dəyişmək, parlament seçkiləri vasitəsilə hakimiyyəti əvəzləməklə bağlı ssenarilər reallaşdırmağa çalışırlar.

Cərəyan edən son hadisələr fonunda aydın şəkildə görünür ki, sabiq prezidentlər, yeni formalaşdırılan müxalifət, cəmiyyətdəki "beşinci kolon" təmsilçiləri, revanşistlər, kilsə bu planlarda yer alırlar. Hakimiyyətə qarşı birləşən qüvvələr cəmiyyəti ələ almaqdan ötrü müxtəlif məzmunlu populist çıxışlar edirlər, Baş nazir Nikol Paşinyanı və onun komandasını milli maraqları qurban verməkdə suçlayırlar, hətta bir qədər də irəli gedərək Azərbaycanla Ermənistan arasında sülhyaratma prosesində əldə olunan uğurlara, Vaşinqton razılaşmalarına kölgə salmağa cəhdlər göstərirlər. Hakim komanda isə öz növbəsində sərt mövqe sərgiləməklə kilsə-birləşmiş müxalifət cütlüyünün planlarını pozmağa çalışır və deyə bilərik ki, hələlik buna nail olmağı bacarır.

## Gümrü merinin həbsi ətrafında yaranan ajiotaj

Son illərdə Ermənistanın ikinci ən böyük şəhəri olan Gümrü həm də siyasi proseslərin episentrlərindən biri qismində diqqət çəkir. Xatırladaq ki, Nikol Paşinyan 2018-ci ildə hakimiyyətə gedən yoluna məhz bu şəhərdən başlayıb. O, həmin dövrdə Gümrüdəki mitinqləri bütün ölkə boyunca geniş etiraz dalğasına çevirməyi və hakimiyyətə gəlməyi bacarıb.

Ayrı-ayrı düşərgələrdə növbəti parlament seçkilərinə hazırlıqlar aparıldığı indiki dönəmdə də Gümrü diqqət mərkəzindədir. Bugünlərdə Gümrünün meri Vardan Qukasyan və şəhər meriyasının 7 əməkdaşı Antikorrupsiya Komitəsində aparılan cinayət işi çərçivəsində saxlanılıblar. Milli Təhlükəsizlik Xidmətinin və Ermənistan Baş Prokurorluğunun İstintaq Komitəsinin mətbuat xidmətinin məlumatına görə, Gümrü meri və şəhərin baş memarı ilə bağlı rüşvət faktları üzrə cinayət işləri başlanıb.

Gümrü merinin həbsi hüquq-mühafizə orqanlarının apardığı uzun araşdırmaların nəticəsində mümkün olub. Onun ətrafında çəpər getdikcə daralırdı və nəhayət gözlənilən həbs reallaşıb. Ermənistan mətbuatında verilən məlumatlara görə, Vardan Qukasyan 7 nəfərlə birlikdə Gümrüdə qısa müddətdə geniş korrupsiya şəbəkəsi qurmağa nail olunub. Üzə çıxan faktlardan da məlum olur ki, bələdiyyə sədri və şəhərin baş memarı sahəsi təxminən 1500 kvadratmetr olan qanunsuz tikilmiş binanın leqallaşdırılmasına görə 4 milyon dram, yəni 10 min dollar rüşvət tələb ediblər və alıblar. İşə həmçinin şəhər ağsaqqallar şurasının arzuolunmaz üzvlərini şantaj etmək, eləcə də bələdiyyə sədrinin yaxın qohumuna məxsus torpaq sahələrini qanunsuz özəlləşdirməyə və icazəsiz tikintini leqallaşdırmaq cəhdlərinə dair ittihamlar da daxildir. Maraqlıdır ki, həbs edildikdən sonra Vardan Qukas- yan ona qarşı irəli sürülmüş ittihamları nə qəbul, nə də rədd edib.

Ancaq Gümrü meriyasında həyata keçirilən həbslərin yeganə səbəbinin rüşvətalma faktı olduğunu düşünmək sadəlövhlük olardı. Xatırlatmaq istərdik ki, 2025-ci ilin aprelində keçirilən yerli seçkilərdə hakim komanda Gümrüdə Serj Sarqisyan, Robert Köçəryan və apostol kilsəsinə məğlub olub. Belə ki, müxalifəti təmsil edən Vardan Qukasyan şəhərin meri seçilib. O, sonrakı fəaliyyəti dönəmində də hazırkı hakimiyyətə qarşı müxalif mövqeyi ilə fərqlənib və Baş nazir Nikol Paşinyan hökumətini ölkəni "Türkiyənin vilayətinə" çevirməyə çalışmaqda ittiham edib. Bundan başqa, o, Ermənistanın Rusiya və Belarusla vahid gömrük ittifaqında olmasını təşviq edirdi. Bu tezis isə indiki hakim komandanın irəli sürdüyü xarici siyasət doktrinası ilə ziddiyyət təşkil edir. Məlumdur ki, hazırkı iqtidar ölkənin gələcəyini Avropaya inteqrasiyada görür və bu istiqamətdə davamlı fəaliyyət həyata keçirir.

Beləliklə, Gümrü merinin həbsinin həm də siyasi amillərdən qaynaqlandığı aydın şəkildə görünür. Yeri gəlmişkən, Vardan Qukasyanın həbsi onun bağlı olduğu dairələrdə qəzəblə qarşılanıb. Baş verənlərdən sonra müxalifət, xüsusən də Serj Sarqisyana və Robert Köçəryana yaxın qüvvələr hərəkətə keçiblər. Həmin düşərgədə Gümrüdəki həbslər siyasi repressiya kimi dəyərləndirlib. Respublikaçılar partiyasının üzvü Armen Aşotyan bəyan edib ki, Nikol Paşinyanın demokratiya köpüyü artıq partlayıb. Onun fikrincə, hakimiyyət demokratiya mifini Qərbə satır, ölkədə avtoritar meyillər gücləndiyi halda, seçilmiş merə qarşı indiki hərəkətlər Baş naziri avtoritar liderlərlə bərabər səviyyəyə qoyur.

Ancaq Gümrü merinin həbsi ətrafında sabiq prezidentlərə bağlı olan qüvvələrin ajiotaj yaratmaq cəhdləri onların ümid etdiyi nəticəni vermir. Belə ki, bu dəfə də Ermənistan cəmiyyətində hakim komandanın nüfuzunun daha yüksək olduğu müşahidə edilir. Seçkilərin qalibi olan Gümrü merinin həbsi Ermənistanda geniş rezonans doğurmadı, yalnız şəhərin özündə azsaylı etiraz aksiyası baş tutdu. Gümrü meriyası yaxınlığında keçirilən etiraz aksiyasından sonra 41 nəfərə qarşı cinayət işi açılıb. İstintaq Komitəsindən bildirilib ki, onlar kütləvi iğtişaşlar törətmə işi çərçivəsində ittiham olunurlar. Baş nazirin özü də daha inamlı görünür. O, parlamentdə çıxışı zamanı ölkənin suverenliyinə qarşı çıxan şəxslərlə haqq-hesab çürütməyin vacib olduğunu bəyan edib.

Yeri gəlmişkən, Vardan Qukasyana siyasi məzmunlu ittihamların irəli sürülməsi də özünü çox gözlətməyib. Belə ki, ona qarşı açıq şəkildə Ermənistanın suverenliyindən imtina etməyə çağırdığına görə yeni cinayət işi açılıb. Yerli KİV-in yazdığına görə, hüquq-mühafizə orqanları işin başlanılıb-başlanmaması ilə bağlı iki gün vaxt sərf edib. Oktyabrın 25-də Ermənistan Cinayət Məcəlləsinin 422-ci maddəsinin 2-ci hissəsi ilə yeni cinayət təqibinin başlanması barədə qərar qəbul edilib.

İttihamlar Qukasyanın Korrupsiyaya Qarşı Mübarizə Məhkəməsinin həyətində Ermənistanın suverenliyindən imtinaya çağırış kimi səciyyələndirilən digər ölkələrlə ittifaq yaratmaq niyyəti ilə bağlı bəyanatlarından irəli gəlir. Merin vəkilləri ittihamların bu maddə ilə əlaqəsi olmadığını və siyasi motivli olduğunu düşünürlər. Baş verənləri və N.Paşinya- nın parlamentdə verdiyi bəyanatı dəyərləndirən analitiklər ölkədə yeni həbslər dalğasının gələcəyini də istisna etmirlər.



## Hakimiyyət kilsənin günahlarını yuyur

Bildirilir ki, Ermənistan parlamenti "Audiovizual media haqqında" qanuna dəyişiklikləri sonuncu oxunuşda qəbul edib. Bu dəyişikliklər ictimai televiziya kanallarının sayının ikiyə endirilməsini, maarifləndirici və mədəni proqramların yayımlanması ilə bağlı məcburi tələbin ləğv edilməsini nəzərdə tutur. Qanun layihəsinin əsaslandırılmasından aydın olur ki, söhbət "Şoqakat" dini-maarifləndirici televiziya şirkətinin ictimai multipleksdən çıxarılmasından gedir.

Bütün səmavi dinlər insanları xeyirxahlığa, barışa, nifrətə "yox" deməyə çağırır. Ancaq bunu erməni kilsəsinə və din xadimlərinə aid etmək əsla mümkün deyil. Məlumdur ki, Ermənistan cəmiyyətinə uzun illər ərzində yalançı miflər aşılanıb. Ermənilərin şüurunu zəhərləyən, onları qonşu xalqlara, Türkiyəyə və Azərbaycana qarşı düşmənçiliyə sövq edən zərərli ideologiya əsasən kilsədən qaynaqlanıb və bu gün də din xadimləri bəd niyyətlərindən geri çəkilmək istəmirlər. Əlbəttə ki, kilsənin təmsilçiləri bunu heç də xalqın maraqları naminə etmirlər. Onlar ilk baxışda cəlbedici görünən ideyaları ilə cəmiyyəti ələ almaq və hakimiyyət üzərində nəzarətlərini təmin etmək niyyətindədirlər. Ermənistanda kilsənin uzun illərdir ki, yalnız dini işlərlə məşğul olmadığı, həmçinin siyasətə, o cümlədən də seçkilərə nüfuz etmək cəhdlərində bulunduğu heç kəsə sirr deyil və açıq müzakirə mövzusudur. Aydın məsələdir ki, kilsə qarşıdan gələn seçkilərə də seyirçi qismində qalmamağa çalışacaq.

Kilsənin siyasiləşməsi, cəmiyyəti, xüsusilə də gəncləri zərərli ideyalarla "silahlandırması" Baş nazir Nikol Paşinyanı qane etmir və o xeyli müddətdir ki, keşişlərə qarşı açıq savaşa başlayıb. Baş nazir birmənalı şəkildə bildirir ki, kilsənin insanların beyninə yeritdiyi "Böyük Ermənistan" ideyası əslində erməni xalqını uçuruma sürükləyir, ölkənin bəlaları məhz bu zərərli təbliğatdan qaynaqlanır. Ölkənin müstəqilliyi və xalqın xoşbəxtliyi ancaq real Ermənistan daxilində mümkündür, kilsənin qonşu xalqlara nifrət aşılaması yolverilməzdir. Kilsə miflərini dağıdan Baş nazir həmçinin erməni din xadimlərinin cinayətlərini də faş etməkdən çəkinmir. Xatırladaq ki, bundan əvvəl N.Paşinyan katolikos II Qaregini subaylıq andını pozmasına görə ittiham edib. İndiyədək kilsə Ermənistan cəmiyyətində müqəddəs və toxunulmaz sayılırdı. Baş keşişin subaylıq andını pozması ittihamları bütün Ermənistan cəmiyyəti və milli-mənəvi dəyərləri üçün böyük təhqir anlamında qəbul olundu. Bu, kilsə mifinin puç olması deməkdir.

N.Paşinyan kilsəyə vurduğu ideoloji zərbənin davamını keşişlərin həbsə alınması ilə gətirib. Bir neçə gün bundan əvvəl Ermənistanda 5 yüksək vəzifəli keşiş İstintaq İdarəsinə çağırılıb. "Müqəddəs Eçmiədzin" monastır kompleksinin məlumatına əsasən, onların arasında katolikos II Qareginin qardaşı oğlu, yepiskop Mkrtıç Proşyan da var. Bildirilib ki, Mkrtıç Proşyanla yanaşı, 12 keşiş və yeparxiyanın mühasibi, xəzinədarı və referentin də yaşadığı mənzildə axtarış aparılıb. Proşyan da daxil olmaqla 6 keşiş barəsində iki ay müddətinə həbs qətimkan tədbiri seçilib.

Yepiskopa qarşı Cinayət Məcəlləsinin "seçki hüququnun həyata keçirilməsinə və seçki komissiyalarının işinə maneçilik" və "mitinq keçirilməsinə və ya mitinqdə iştirak etməyə maneçilik, həmçinin iştirak, yaxud imtina üçün maddi həvəsləndirmə" maddələri üzrə ittiham irəli sürülüb.

Eyni zamanda, apostol kilsəsi tərəfindən təsis edilən "Şoqakat" televiziya kanalı bağlanır. Bu barədə Ermənistan mediası xəbər yayıb.

Kilsə təmsilçilərinin kütləvi şəkildə həbsinə hakim komandanın rəqiblərindən reaksiyalar özünü çox gözlətməyib. Keçmiş ombudsman və "Birlik qanadları" təşəbbüsünün rəhbəri Arman Tatoyan baş verənləri Nikol Paşinyanın kilsəyə qarşı siyasi kampaniyasının bir hissəsi adlandırıb: "O, məhkəmə, prokuror, müstəntiq və əməliyyat işçisi funksiyalarını öz üzərinə götürüb. Kilsə ilə siyasi hesablaşma ssenarisini əvvəlcə onu nüfuzdan salan hakimiyyət, indi təbliğatı konkret hərəkətlərlə həyata keçirməyə başlayıb", - deyə keçmiş ombudsman bildirib.

Hökumət başçısı Nikol Paşinyan isə kilsəyə qarşı hücumlar barədə ittihamları rədd edərək deyib ki, kilsə və yepiskop eyni şey deyil. Mövqeyini qəti şəkildə ortaya qoyan baş nazir bildirib: "Erməni Apostol Kilsəsinin tarixində yepiskopların cinayət təqibi halları olsa da, kilsə fəaliyyət göstərməyə davam edib. Hüquq-mühafizə orqanlarının əməliyyatları xarici bəyanatlarla əlaqəsi olmayan müstəqil istintaq tədbirləridir".

Belə görünür ki, Erməni Apostol Kilsəsi, burada cəmləşən keşişlər və digər din xadimləri başdan - ayağa günah içindədirlər. Onilliklər boyunca davam edən bu günahları yumaq missiyasını indi Baş nazir Nikol Paşinyan öz üzərinə götürüb. Onun kilsə məkrinin öhdəsindən necə gəlib-gəlməyəcəyini isə zaman göstərəcək.

*Mübariz ABDULLAYEV*

# Görüş yerini dəyişmək olmaz...

## Putin ilə Tramp Budapeştə gələcəkmi?



Qlobal gündəmin əsas mövzularından birinə çevrilmiş Putin-Tramp görüşünün baş tutub-tutmayacağı ilə bağlı müzakirələr səngimir. Bəzi siyasi texnoloqlar "pərdənin arxasında" danışıqlar prosesinin davam etdiyi fikrindədir. Onlar iddia edirlər ki, görüşün effektiv nəticə ilə yadda qalması üçün zəruri və münbit şərait formalaşdırılır. Hər bir halda görüş yerinin dəyişməyəcəyi qənaəti irəli sürülür - təsadüfi deyil ki, Macarıstanın xarici işlər naziri Peter Siyarto da Rusiya və ABŞ prezidentlərinin Macarıstanın paytaxtında bir araya gələcəyinə ümid etdiyini dilə gətirib. "American Conservative" jurnalına verdiyi müsahibədə bildirib ki, "Zirvə görüşünün baş tutacağı barədə məlumat aldım və liberal mediadan daha çox Prezident Donald Tramp və Prezident Putinə etibar edirəm".

**Avropa liderləri günahlandırıldı...**

Siyarto qeyd edib ki, bu görüş elan edilən ilk andan etibarən bir çoxlarının bunun baş verməməsi üçün əlindən gələni edəcəyini bilirdik. "Əminəm ki, görüş baş tutana qədər saxta xəbərlər, sızmalar və bu sammitin baş tutmayacağı barədə bəyanatlar görməyə və eşitməyə davam edəcəyik"", - deyən Siyarto maraqlıdır ki, sülhdə maraqlı olmayan qüvvələri sadalayarkən o sıraya Avropa liderlərini də daxil edib. O, Trampı "Mərkəzi Avropada sülhün bərpası üçün yeganə ümid" adlandırıb.

**Şərtsiz görüş üçün şərtlər...**

Bu arada ABŞ Prezidenti Donald Tramp da Rusiya lideri Vladimir Putinlə görüşüb-görüşməyəcəyi məsələsinə aydınlıq gətirib. Jurnalistlərin suallarını cavablandıran Tramp bildirib ki, o, bu görüşə yalnız bir şərtlə razı ola bilər - əgər görüş Ukraynada sülh sazişlərinin imzalanmasına real zəmin yaratsa. "Əgər bu görüş sülhə gətirəcəksə, əlbəttə ki, mən Putinə görüş təklif edə bilərəm. Amma vaxtımı boşa sərf etməyə hazır deyiləm", - deyə ABŞ prezidenti sərt tonda vurğulayıb.

Rusiya tərəfi isə topu yenidən qarşı tərəfə "ötürüb". Belə ki, xarici işlər naziri Sergey Lavrov bildirib ki, Vladimir Putin və ABŞ Prezidenti Donald Trampın mümkün yeni görüşü yalnız Vaşinqtonun təşəbbüsündən asılıdır: "İndi təşəbbüs var, biz isə mədəni insanlarıq. Əgər bizi dəvət edirlərsə, razılığımızı bildirir və deyirik ki, gəlin format, yer və vaxt barədə razılaşaq."

Lavrovun sözlərinə görə, Vladimir Putin ABŞ Prezidenti Donald Trampın komandasının Ukrayna ilə bağlı təqdim etdiyi konsepsiya əsasında əməkdaşlığa hazır olduğunu bildirib. Macarıstanın "Ultrahang" adlı YouTube kanalına müsahibəsində Lavrov bildirib ki, Putin Trampın xüsusi nümayəndəsi Stiv Uitkoffun Moskvada təqdim etdiyi konsepsiya və çərçivə yanaşması əsasında əməkdaşlığa hazır olduğunu söylədi. Bu mövzular daha sonra Ankoricdə də müzakirə olundu.

Anlaşılan budur ki, Moskva ABŞ tərəfindən təqdim olunan konsepsiyanı qəbul etməyə və onun əsasında praktiki addımlar atmağa hazırdır - amma bu mövzuda tərəflərdən birbaşa cavab olmayıb. Ən əsası isə danışıqların davam etdirilməsi üçün tərəflər düşünmək məqsədilə pauza götürməyə razılaşıb.

**Görüş olacaq, amma...**

Rusiya-ABŞ danışıqlarında aktiv fiqurlardan biri olan Rusiya Birbaşa İnvestisiya Fondunun (RDIF) rəhbəri və xarici ölkələrlə investisiya və iqtisadi əməkdaşlıq üzrə xüsusi nümayəndə Kirill Dmitriyev də görüşün baş tutacağına əminlik ifadə edib. O, görüşün vaxtı ilə bağlı dəqiq məlumat verməsə də, reallaşacağına qətiyyət ifadə edib. Dmitriyev deyib ki, "ehtimal var ki, detalların işlənməsi zərurəti ilə əlaqədardır. Bütün detallar diplomatik cəhətdən yaxşı hazırlanmalıdır". O, Rusiyanın "atəşkəs deyil, münaqişənin qəti həllini istədiyini" vurğulayıb, hətta Moskva, Kiyev və Vaşinqtonun diplomatik razılaşmaya yaxın olduğu fikrini bildirib.

**Gözləmək lazım gələcək...**

Qeyd edək ki, görüşün toplantısının ləğvindən sonra ABŞ Maliyyə Nazirliyi "Lukoil" da daxil olmaqla iki böyük Rusiya neft şirkətinə qarşı sanksiyalar tətbiq edib. Məhdudiyyətlərin onların nəzarəti altında olan bütün qurumlara şamil edildiyi vurğulanıb. Ağ Evin mətbuat katibi Kerolin Levitt daha sonra Trampın Moskvaya qarşı yeni məhdudiyyətlər tətbiq etmək qərarına gəldiyini bildirib - çünki bunun "zəruri olduğu an" yetişib.

Moskva isə öz növbəsində Vaşinqtonun tədbirlərinin sürpriz olmadığını və Rusiya iqtisadiyyatına ciddi ziyan vurmayacağını vurğulayıb. Putinin sözlərinə görə, yeni sanksiyalar Rusiyaya siyasi təzyiq göstərmək üçün daha bir cəhddir. Prezident ABŞ-ın qərarını münasibətlərin bərpasına töhfə verməyən qeyri-dost addım adlandırıb. Eyni zamanda, o, Moskvanın konstruktiv dialoqa hazır olduğunu deyib. Donald Tramp rusiyalı həmkarının sözlərinə cavab olaraq bildirib: "Mən onun üçün şadam. Görək 6 aydan sonra nə olacaq".

*P.İSMAYILOV*

# Daha bir münaqişəyə son qoyuldu!

## ABŞ liderinin vasitəçiliyi ilə Kamboca və Tailand arasında sülh sazişi imzalanıb




ABŞ Prezidenti Donald Tramp növbəti diplomatik uğura imza atıb. Belə ki, Malayziyanın paytaxtı Kuala-Lumpur şəhərində Cənub-Şərqi Asiya Ölkələri Assosiasiyasına (ASEAN) üzv dövlətlərin liderlərinin sammiti çərçivəsində Kamboca və Tailand arasında sülh sazişi imzalanıb. Sazişi Donald Trampın iştirakı ilə hər iki ölkənin baş nazirləri imzalayıblar. Tərəflər arasında sülh sazişinin imzalanması barədə ABŞ Prezidenti sosial media hesabında da məlumat verib. Tramp müharibələri dayandırmağı sevdiyini deyib, amma bildirib ki, bunu hobbi adlandırmazdı. O, belə bir açıqlamanı Kuala-Lumpurda, Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyasının sammiti çərçivəsində Tailand və Kambocanın münasibətləri haqqında birgə bəyannaməni imzaladığı vaxt verib. "Tailand və Kamboca liderlərinə zəng etdiyim günü heç vaxt unutmayacağam, çünki bu, həllinə kömək etdiyim ilk müharibələrdən biri idi. Mən bunu etməkdən zövq aldım. Bunu hobbi adlandırmazdım, çünki bu,



hobbidən daha ciddidir, amma mən bu işi yaxşı görürəm və bunu etməyi sevirəm" - deyə, ABŞ lideri qeyd edib. "BMT bunu etməlidir, amma etmir", - deyərək o, BMT Baş Assambleyasındakı çıxışı zamanı teleprompterin söndüyünü və eskalatorda da problemlərin olduğunu xatırladıb.

**Münaqişə nə üçün başlamışdı?**

Qeyd edək ki, qlobal sülh təşəbbüskarı kimi çıxış edən Ağ Evin rəhbəri Qəzzada münaqişəni bitirdikdən sonra diqqətini Tailand ilə Kamboca arasında ərazi mübahisələrinin və ikitərəfli münasibətlərdəki problemlərin həllinə yönəltmişdi. Xatırladaq ki, bu ilin iyul ayının sonlarında Tailand və Kamboca arasında son 10 ilin ən gərgin hərbi toqquşmaları baş vermişdi. Toqquşma zamanı hər iki tərəfin bir-birinin sərhəd ərazilərini ağır artilleriya ilə atəşə tutması nəticəsində çoxlu insan həlak olmuş, on minlərlə insan isə evlərini tərk etmək məcburiyyətində qalmışdı. Gərginlik hər iki ölkənin sərhədində yerləşən Ta Moan Thom məbədi və bu məbədin ətrafında olan ərazilər üzərində illərlə davam edən mübahisədən qaynaqlanır. Münaqişənin kökləri 1907-ci ilə, Fransa tərəfindən çəkilmiş sərhəd xəritəsinə dayanır. Həmin vaxt Kamboca Fransanın müstəmləkəsi idi və sərhədin təbii suayırıcı xəttlə müəyyən olunması razılaşdırılmışdı. Lakin Tailand sonradan bu xəritənin legitimliyini qəbul etmədi və 817 kilometrlik sərhədin bir neçə hissəsində mübahisəli ərazilər formalaşdı.1962-ci ildə Beynəlxalq Ədalət Məhkəməsi (BƏM) Ta Moan Thom məbədinin Kambocaya məxsus olduğunu təsdiqlədi. Lakin bu qərar məbədin ətrafındakı torpaqların statusunu aydınlaşdırmırdı. 2008-ci ildə Kamboca məbədi UNESCO-nun Dünya İrsi Siyahısına salmağa çalışdığda gərginlik yenidən alovlandı. Həmin dövrdən bəri tərəflər arasında dəfələrlə toqquşmalar baş verib. 2024-cü ilin sonunda və 2025-ci ilin əvvəllərində baş verən bəzi hadisələr vəziyyəti daha da gərginləşdirdi. Mayın 28-də sərhəddə hər iki tərəfin bir-birinin mövqelərinə atəş tutması ilə başlayan gərginlik iyul ayında sərhəd boyunca şiddətli toqquşmalara çevrildi. Lakin Malayziyanın Baş naziri Ənvər İbrahimin vasitəçiliyi və Prezident Donald Trampın təzyiqləri nəticəsində Tailand və Kamboca atəşi dayandırdı və aralarındakı problemi həll etmək üçün danışıqlar masası arxasına oturmağa razı oldular.

**Dörd ay davam edən danışıqların nəticəsi...**

Dörd ay davam edən danışıqlarda, nəhayət Tailand və Kamboca hökuməti iki ölkənin sərhədində mübahisəli ərazilərin həllinə dair bəzi məsələlərdə razılığa gəldilər. Razılaşmaya görə, hər iki tərəf sərhəd ərazidə öz mövqelərində heç bir ağır silah yerləşdirməyəcək, iki tərəfin əsgərləri əraziləri minalardan təmizlənməyə cəlb olunacaq, mübahisələri dialoq çərçivəsində həll edəcək və hər iki ölkə transmilli cinayətlərə qarşı birgə mübarizə aparacaqlar.

Xatırladaq ki, razılaşmalar Tailandın Xarici İşlər Nazirliyi oktyabrın 17-də Kuala-Lumpurda keçirilən dördtərəfli məsləhətləşmələrin yekunları üzrə nazir Sixasak Phuangketkeyin bəyanatında da əksini tapırdı. Bəyanatda bildirilirdi ki, Tailand və Kamboca ağır silahların çıxarılması, sərhədyanı ərazilərin minalardan təmizlənməsi və transmilli cinayətkarlıqla mübarizədə irəliləyiş əldə ediblər: "ABŞ, Malayziya, Tailand və Kamboca arasında dördtərəfli məsləhətləşmələr 2025-ci ilin sentyabrında Nyu-Yorkda keçirilən ilk görüşün davamı idi. Müzakirələr Tailand və Kamboca arasında müxtəlif məsələləri əks etdirən birgə bəyannamənin hazırlanmasına yönəldilib. Tailand üçün prioritet olan dörd sahədə irəliləyiş əldə edilib: sərhəd bölgələrindən ağır silahların çıxarılması, minalardan təmizləmə, transmilli cinayətlərlə mübarizə və prioritet sərhəd bölgələrinin idarə edilməsi". Bu razılaşma fonunda Tailand və Kambocanın baş nazirləri Kuala-Lumpurda sözügedən sənədi imzalayıblar. Təbii ki, belə bir razılaşmanın əldə olunmasında Trampın əhəmiyyətli rolu danılmazdır. Məhz Trampın dəstəyi ilə Tailand və Kamboca arasında dörd ay ərzində danışıqlar baş tutub.

**Asiya ölkələri atəşkəsə nəzarət edəcək**

Yeri gəlmişkən, Malayziya və digər Asiya ölkələri Tailandla Kamboca arasında atəşkəsi izləmək üçün müşahidəçilər göndərəcək. Bu barədə açıqlamanı tərəflərin sözügedən sazişi imzaladığı mərasimdə ABŞ Prezidenti Donald Tramp verib. O qeyd edib ki, Malayziya da daxil olmaqla Asiya ölkələrindən müşahidəçilər sülhün davamlı olmasını təmin etmək üçün müvafiq zonada yerləşdiriləcək. Tramp vurğulayıb ki, çoxlarının işlək olmayan hesab etdiyi sülh müqaviləsi milyonlarla insanın həyatını xilas edəcək. O, həmçinin müqavilənin bir hissəsi olaraq Kambocanın 18 əsirinin azad olunacağını elan edib. Bütün bunlarla yanaşı, Tramp həmin tədbir çərçivəsində Kamboca ilə ticarət sazişi, eləcə də Tailandla zəruri mineral sazişləri də imzalayıb.

Beləliklə, ABŞ Prezidenti Donald Tramp dünyada daha bir münaqişənin həllinə nail olub. Məhz bu səbəbdəndir ki, Dövlət Departamenti onu "sülh prezidenti" adlandırıb.

*N.BAYRAMLI*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Bakmətbuat" MMC - 0124314313
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# Sözün işığında yaşayan insan

## Mirzə İbrahimov dilimiz uğrunda ömür verən yazıçı idi...



Azərbaycan ədəbiyyatının tarixində elə şəxsiyyətlər var ki, onların adı çəkiləndə sadəcə bir yazıçı, dramaturq, ictimai xadim yada düşmür. Onların adı bir dövrün nəfəsi, xalqın düşüncəsi, millətin iradəsi ilə eyniləşir. Bu adlardan biri, bəlkə də birincisi Mirzə İbrahimovdur.

Mirzə İbrahimov təkcə yazıçı deyildi. O, xalqın dilində danışan, dərdini duyan, xalqın taleyinə yön verən bir fikir nəhəngi idi. Onun əsərlərində, çıxışlarında, mübarizəsində bir məfkurə vardı - azərbaycançılıq ideyası, dil və milli kimlik uğrunda mübarizə. Yazıçı və ədəbiyyatşünas alim olmasına baxmayaraq, əsl dilşünas səriştəsi ilə ana dili haqqında bir sıra məqalələr yazıb, Azərbaycan dilinin inkişafı və tətbiqi uğrunda var qüvvəsi ilə çalışıb.

Bu gün Mirzə İbrahimovun anadan olmasından 114 il ötür. Yazıçı uşaqlıq illərindən yoxsulluğun ağrısını görmüşdü. Amma elə o illərdə də xalqına, torpağına sevgi onun qəlbində bir çıraq kimi yanmağa başlamışdı. Bu çıraq da ömrünün sonuna qədər sönmədi...

**Sözün və vətəndaşlığın harmoniyası**

Mirzə İbrahimovun qələmindən çıxan hər bir əsər sadəcə bədii mətn deyil, xalqın taleyini daşıyan bir güzgüdür. O, yazılarında xalqı, əzmkarlığı, həmçinin sevgi ilə dolu həyatı tərənnüm edirdi. "Gələcək gün", "Pərvanə", "Böyük dayaq", "Həyat", "Kəndçi qızı" və digər əsələrini xüsusilə qeyd edə bilərik. Amma onun böyüklüyü yalnız ədəbi yaradıcılığında deyildi. Mirzə İbrahimov xalqına ürəkdən bağlı bir ziyalı idi. 1956-cı ildə Azərbaycan dilinə dövlət dili statusu verilməsi məsələsində onun qətiyyətli mövqeyi tariximizin qızıl səhifəsidir. O, dilimizi sadəcə bir ünsiyyət vasitəsi kimi deyil, xalqın varlığı, kimliyi, ruhu kimi müdafiə edib.

**Müdrikliyin və sadəliyin simvolu**

Onu tanıyanlar deyirdilər ki, Mirzə İbrahimovun baxışlarında bir ata mehribanlığı, bir alim dərinliyi, bir yazıçı həssaslığı var idi. Onun yanında olmaq, onunla söhbət etmək sanki insanın ruhunu təmizləyirdi. Mirzə İbrahimov şöhrət arxasınca qaçmadı, vəzifə üçün deyil, vətən üçün yaşadı. Onun üçün ən böyük mükafat xalqın sevgisi idi və o sevgini qazandı. Çünki o, xalqın içindən gəlmişdi, xalqın dərdini də, sevincini də yaxşı bilirdi.

**Əbədi işıq...**

Mirzə İbrahimovun ömrü 1993-cü ildə tamamlandı, amma onun ruhu, sözü, idealları bu gün də bizimlədir. Yazdığı əsərlər bu gün gənclərə Vətənə sevgi, insana inam, milli şüur aşılayır.

*Yeganə BAYRAMOVA*

# Ekranda canlanan xəyallar...

## Animasiyalar rənglərin və hərəkətlərin sehrli dünyasıdır

**Bütün yaşlarda maraqla izlədiyimiz cizgi filmləri hər dəfə bizi fərqli aləmlərə aparır. İçindəki uşağı qorumağı bacaran hamı cizgi filmləri izləməkdən zövq alır. Asan başa düşülən ssenarilər və rəngli personajlı animasiya filmləri uşaqları da əyləndirir, öyrədir və xəyal dünyalarına aparır. 28 oktyabr bütün dünyada Beynəlxalq Animasiya Günü kimi qeyd olunur. Fransız rəssam və ixtiraçı Emil Raynaud Greven Muzeyində bir araya gələn Paris ictimaiyyətinə ekranda təkrarlanan hərəkətli şəkilləri nümayiş etdirib. Həmin şəkillər bir müddət unudulsa da, sonralar hərəkətli rəsmlər ideyası kinematoqrafiyanın baniləri - Lui Lümyer və Ogüst Lümyer qardaşlarının ixtirası ilə birləşərək populyarlıq qazanır. Sonralar kompüterlərin meydana gəlməsilə kompüter animasiyası da yaranır. Hətta hazırda bu texnologiyalar o qədər inkişaf edib ki, bir mütəxəssis üçün ekranda nə gördüyünü müəyyənləşdirmək bəzən çətinləşir və belə bir sual yaranır: Bu canlı filmdir və ya cizgi filmi? Beynəlxalq Animasiyalar Günü bizə bir daha xatırladır ki, hər bir hərəkət, hər bir rəng və fikir bir insanın təxəyyülündə doğulur, sonra bütün dünyaya yayılır. Animasiyanın sehri ondadır ki, düşüncələrə can verir, xəyalı gerçəkliyə çevirir.**

## Dünyanın 104 ölkəsində...




Beynəlxalq Animasiya Kino Assosiasiyası (ASİFA) 2002-ci ildə animasiya günü Emil Renonun ixtirasının ilk kütləvi nümayişinin 110 illiyi şərəfinə təsis edilib. Bu baxımdan da Beynəlxalq Animasiya Günündə dünyanın hər yerindən animator sənətçilər filmlərinin proqramlarını dəyişdirərək yaradıcılıq premyeraları təşkil edirlər. Hazırda bu cür cizgi film nümayişləri eyni vaxtda Rusiya Federasiyası da daxil olmaqla, dünyanın 104 ölkəsində keçirilir.

## Azərbaycan animasiyası...

Azərbaycanda bu tarix 20-ci əsrin 30-cu illərinin əvvəllərinə təsadüf edir. 1933-cü ildə "Azərbaycanfilm" studiyasının bir qrup işçisi kinonun bu növünün istehsalı üçün əvvəlcədən hazırlıq işləri apararaq Moskvadan lazımi materialları alıb gətirib. Həmin il "Lökbatan" və "Neft simfoniyası" sənədli filmlərini çəkərkən texniki animasiyadan istifadə ediblər. "Cat" təlimat filmində isə animasiyadan bütünlüklə istifadə olunub. Film ümumittifaq ekranlarında 1938-ci ilə qədər nümayiş etdirilib. Bu film ekranlara buraxılandan sonra kinostudiyada bir qrup təşəbbüskar ilk dəfə cizgi filmi yaratmağı qərara alır və film üçün mövzu Azərbaycan xalq nağıllarından götürülür.

1968-ci ildə "Azərbaycanfilm" kinostudiyasının direktoru Adil İsgəndərov cizgi filmləri sexini bərpa etdirərək cizgi filmləri üzrə kadrların hazırlanmasına, eyni zamanda, cizgi filmlərinin istehsalı prosesinə diqqəti artırır. Uzun fasilədən sonra məhz həmin ildə yeni milli multiplikasiya filminin çəkilməsi qərara alınır.



1969-cu il fevralın 28-də Nazim Məmmədovun təklifi ilə "Cırtdan" adlı xalq nağılının motivləri əsasında eyni adlı cizgi filminin istehsalına başlanılır. 1980-ci illərin sonunda ölkədə gedən ictimai-siyasi proseslər "Azərbaycanfilm"in yeni iş üsuluna keçməsi ilə əlaqədar yollar axtarması kinostudiya nəzdindəki birlik və şöbələrin müstəqil fəaliyyət göstərməsinə təkan verdi. 1990-cı ilin aprel ayında Sovet İttifaqında ilk dəfə olaraq Azərbaycan multiplikatorları təsərrüfatın icarə formasına keçdilər. Multiplikasiya sexinin adı dəyişdirilib, "Azanfilm" Yaradıcılıq-İstehsalat Birliyi oldu. "Azanfilm" - Azərbaycan animasiya filmləri deməkdir.

*Yeganə BAYRAMOVA*

## Allah rəhmət eləsin!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı partiyanın Binəqədi rayon təşkilatının sədri Vüsar İsmayılova əzizi

**KÜBRA ƏLİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

# "Nar"a yeni baş icraçı direktor təyin olundu




27 oktyabr 2025-ci il tarixində Özgür Genc "Azerfon" MMC-nin ("Nar" ticarət nişanı) baş icraçı direktoru vəzifəsinə təyin olunub.

Özgür Genc İKT və şəbəkə texnologiyaları da daxil olmaqla, telekommunikasiya sahəsində 25 ildən çox zəngin təcrübəyə malikdir. O, Azərbaycanın "Azerconnect Group", Türkiyənin "Turkcell" və Ukraynanın "Lifecell" kimi nüfuzlu İKT və telekommunikasiya şirkətlərində müxtəlif rəhbər vəzifələrdə çalışaraq uğurlu texnologiya strategiyalarının formalaşdırılması, innovasiyaların tətbiqi prosesinə mühüm töhfələr verib.

Özgür Genc Türkiyənin Yıldız Texniki Universitetinin Elektrik və elektronika fakültəsini bitirib. O, həmçinin İsveçrənin nüfuzlu "IMD" Biznes Məktəbində "Rəqəmsal Transformasiya və Gələcəyin İdarə olunması" proqramını müvəffəqiyyətlə bitirib.

Özgür Genc "Azerfon" MMC ("Nar") şirkətinin baş icraçı direktoru vəzifəsində Qunnar Pankeni əvəz edib. Qunnar Panke karyerasında yeni imkanları dəyərləndirmək məqsədilə şirkətdən ayrılıb.

Hazırda 2,2 milyon abunəçiyə xidmət göstərən "Nar" son 6 il ərzində Müştəri Loyallığı İndeksi göstəricisinə əsasən Azərbaycanda lider mobil operatordur. Bu uğurun arxasında "Nar"ın ardıcıl şəkildə həyata keçirdiyi müştəriyönümlü strategiya dayanır. Mobil operator istifadəçilərinə sərfəli qiymət qarşılığında dayanıqlı və yüksəkkeyfiyyətli rabitə xidmətləri, müxtəlif internet paketləri və müasir eSim texnologiyası təqdim edir.

# Bütün dünyada işıqlar eyni anda yanarsa...



Əgər dünyadakı bütün insanlar eyni anda işıqlarını yandırsalar, bu, qlobal miqyasda elektrik enerjisinə böyük və qəfil tələbat yaradardı. Elektrik stansiyaları bu artımı qarşılamaq üçün dərhal istehsalı artırmalı olardı. Lakin bütün stansiyalar bunu eyni sürətlə edə bilmir.

AZƏRTAC "sciencealert.com" saytına istinadla mövzu ilə kiçik araşdırma edib. Belə ki, kömür və nüvə stansiyaları istehsalı artırmaqda yavaş, təbii qazla işləyən stansiyalar isə daha çevikdir. Günəş və külək enerjisi kimi bərpa olunan mənbələr isə havadan asılı olduğuna görə hər zaman sabit enerji təmin edə bilmir. Hazırda elektrik şəbəkələri tələb və istehsal arasında tarazlığı qorumaq üçün kompüterlər, sensorlar və bəzi yerlərdə böyük batareyalardan istifadə edir. Amma bu batareyalar bütün şəhərləri uzun müddət işlətmək üçün kifayət qədər güclü deyil. Xoşbəxtlikdən, dünyada vahid bir elektrik şəbəkəsi yoxdur. Hər ölkənin və ya regionun öz sistemi var. Buna görə də bəzi yerlərdə işıqlar sönsə belə, bütün planetin eyni anda qaranlığa qərq olması mümkün deyil. Bundan başqa, müasir LED lampalar əvvəlki lampalara nisbətən daha az enerji sərf edir. Bu da qəfil işıq yanması halında şəbəkəyə düşən yükü azaldar. Lakin başqa bir problem də yaranar: işıq çirklənməsi. Bütün işıqlar eyni anda yanarsa, səma çox parlaq olar və ulduzlar demək olar ki, görünməz hala gələr. Bu, təkcə gecə mənzərəsini deyil, həm də insanların yuxu rejimini və vəhşi təbiətin davranışını pozar.

Dünyada bütün işıqlar bir anda yansa, geniş miqyaslı enerji böhranı ehtimalı az olsa da, səma parıltısı artar və təbiət balansı pozular.

*İdman*

# Qəbələdə bədii gimnastika üzrə "Grace of Nature" turniri keçirilib




Qəbələdə bədii gimnastika üzrə "Grace of Nature" turniri keçirilib.

Bu barədə "Report"a Azərbaycan Gimnastika Federasiyasının mətbuat xidmətindən məlumat verilib.

Yarışda ölkənin müxtəlif bölgələrini təmsil edən 20 idman klubundan "Ocaq Sport", "Grasiya" İdman Klubu, BGM, RKİM, SİS, "Sərhədçi" İdman Olimpiya Mərkəzi, "Dinamo" İdman Cəmiyyəti, Goranboy, Şirvan, Zirə, Naxçıvan, "Mingəçevir-Kür", Abşeron OİK, Gəncə OİK, Şağan, Hövsan, Gəncə, Göyçay, Sabirabad və Ağdaşdan olan gimnastlar iştirak ediblər.

Turnirdə fərdi proqram üzrə 203 gimnast və 8 qrup hərəkətləri komandası mübarizə aparıb.

Yarışın ilk günündə 2019-2016-cı il təvəllüdlü, ikinci günündə 2016-2013-cü il təvəllüdlü, sonuncu gündə isə 2013-2010-cu il təvəllüdlü gimnastlar çoxnövçülük və ayrı-ayrı alətlər üzrə proqramlarda çıxış ediblər. Uğur qazanan gimnastlar medallarla təltif olunublar.

Qeyd edək ki, "Grace of Nature" turniri gənc gimnastların bacarıqlarını nümayiş etdirməsi, yarış təcrübəsi qazanması və sağlam rəqabət mühitində inkişaf etməsi üçün mühüm əhəmiyyət daşıyır.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4994
Sifariş: 2216
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova